

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Böyük Qayıdış: Laçında yeni həyat



4

# 6 ayın göstəriciləri dövlətin niyyətini və gücünü göstərir



2

PREZİDENT İLHAM ƏLİYEV: "Əminəm ki, ilin sonuna qədər ölkəmizin uğurlu inkişafı təmin ediləcək"

SƏS

№ 125 (6808)

19 iyul 2023-cü il.
Qiyməti 60 qəpik

# Sülhməramlı missiya, yoxsa Brüssel formatı




6

## Qrantyeyənlərin "təhsil fondu"



5

## Çap mediası rəqəmsal medianın kölgəsində qalır?



12

## Mina təmizləmə işləri nə yerdədir?



13




## "Avropa futboluna qayıtmayacağam, qapı tamamilə bağlıdır"

16

## Fermerlərə hansı kredit və güzəştlər təklif olunur?



16

# 6 ayın göstəriciləri dövlətin niyyətini və gücünü göstərir

## PREZİDENT İLHAM ƏLİYEV: "Əminəm ki, ilin sonuna qədər ölkəmizin uğurlu inkişafı təmin ediləcək"



Qüdrətli ordu, güclü iqtisadiyyat, beynəlxalq arenada önəmli mövqe, müstəqil xarici siyasət və qalib ölkə. Bu, öz tarixinin ən güclü dövrünü yaşayan Azərbaycanın bugünkü reallıqlarıdır. Son 20 il əvvəl Azərbaycan xalqı müdrik seçim edərək, Ulu Öndərimizin siyasi kursuna və dahi şəxsiyyətin layiqli davamçısı İlham Əliyevə səs verdi. Ötən hər il xalqın öz seçimində yanılmadığını təsdiqləməkdədir. Yeni əsrin yeni lideri İlham Əliyev bu 20 ildə Azərbaycanı həm siyasi-iqtisadi, həm də hərbi cəhətdən qüdrətli, dünyada sözü keçən dövlətə çevirdi. Bu güc sayəsində Qarabağın 30 il davam edən işğalına 44 gündə son qoymaq mümkün oldu. Biz həqiqətən tarixi günlər yaşadıq və yaşayırıq. Xalqımıza Qarabağ Zəfərini bəxş edən, bizi qalib xalqa çevirən Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin "güclü dövlət" konsepsiyasına nəzər salaq. Məhz bu konsepsiyanın əsasını təşkil edən üç mühüm güc - iqtisadi, siyasi, hərbi güc və onların vəhdəti Azərbaycanın Vətən müharibəsinin başlıca hərəkətverici qüvvəsi oldu.

### DÜZGÜN İQTİSADİ SİYASƏT ÖLKƏNİ ANCAQ TƏRƏQQİYƏ DOĞRU APARIR

Bu real faktordur ki, ölkə iqtisadi cəhətdən müstəqil olanda, siyasi müstəqilliyə də qovuşmuş olur. Çünki iqtisadi asılılığı olan ölkələr heç vaxt müstəqil siyasət yürüdə bilməzlər. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan iqtisadi və siyasi müstəqillik qazanmış azsaylı ölkələrdəndir. İlin altı ayının sosial iqtisadi göstəricilərinin ildən-ilə artaraq tərəqqi doğru aparır.

"Həyata keçirilən islahatlar, vətəndaşlarımızın sosial-iqtisadi vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində atılan addımlar, qeyri-neft sektorunun inkişafı üzrə görülən işlər öz müsbət nəticələrini verməkdədir",-deyən Prezident İlham Əliyev bildirib ki, ölkəmiz ötən altı ayda nəzərdə tutulmuş hədəflərə nail olunub. Belə ki, əvvəlki dövrlərdə olduğu kimi, ölkəmizdə yenə də dayanıqlı inkişaf təmin edilib, qeyri-neft sektoru böyüyüb, Qarabağ və Şərqi Zəngəzurda misli görünməmiş bərpa-quruculuq işləri geniş vüsət alıb, iqtisadi və sosial sahələrdə ardıcıl və sistemli islahatlar həyata keçirilib və uğurlar da ortadadır Qeyd olunmuşdur ki, cari ilin altı ayında əsas istiqamətlər ölkəmizin dayanıqlı inkişafının təmin edilməsi, qeyri-neft sektorunun inkişafı, Qarabağın və Şərqi Zəngəzurun bərpası, iqtisadi və sosial sahələrdə islahatların davam etdirilməsi idi.

Qeyri-neft sektoru və qeyri-neft sektorunun sənaye sahəsi kifayət qədər artıbdır. Qeyri-neft sənayesi 6,5 faiz və qeyri-neft sektoru, ümumiyyətlə, 3 faizdən çox artmışdır. Belə ki, iqtisadiyyat 6,2, qeyri-neft sektoru 9,6, sənaye istehsalı 2,1, qeyri-neft sənaye istehsalı 11,5, əhalinin gəlirləri 20, orta əməkhaqqı 14 faiz, pensiya isə 10 faizdən çox artıb.

Belə ki, əvvəlki dövrlərdə olduğu kimi, ölkəmizdə yenə də dayanıqlı inkişaf təmin edilib, qeyri-neft sektoru böyüyüb, Qarabağ və Şərqi Zəngəzurda misli görünməmiş bərpa-quruculuq işləri geniş vüsət alıb, iqtisadi və sosial sahələrdə ardıcıl və sistemli islahatlar həyata keçirilib və uğurlar da ortadadır Belə ki, iqtisadiyyat 6,2, qeyri-neft sektoru 9,6, sənaye istehsalı 2,1, qeyri-neft sənaye istehsalı 11,5, əhalinin gəlirləri 20, orta əməkhaqqı 14 faiz, pensiya isə 10 faizdən çox artıb.

Cari ilin dövlət büdcəsi 33 milyard manatdan çox səviyyəyə qalxmışdır. İlin birinci yarısında əlavə gəlirlərin əldə edilməsi imkan verdi ki, təcili həllini gözləyən məsələləri daha tez zamanda həll etmək üçün büdcəyə əlavələr edilsin. Bu gün Azərbaycanın büdcəsi 36 milyard manatdan çoxdur. Bu, imkan verir ki, həm ölkə qarşısında duran əsas investisiya layihələrini icra edilsin, ilk növbədə, azad edilmiş torpaqlarda geniş quruculuq işlərinə növbəti təkan verilsin və hərbi gücümüzü artıraq.

Onu da vurğulamaq lazımdır ki, ölkə iqtisadiyyatında dinamik inkişaf dövrünü yaşayan və iqtisadiyyatda payı artan sektorlardan biri də energetikadır. Azərbaycan iqlimin dekarbonlaşdırılması və yaşıl enerjiyə keçidlə əlaqədar qlobal çağırışlara qoşulan ilk ölkələrdəndir. Artrıq 710 meqavat gücündə üç bərpa olunan enerji stansiyaların qurulması istiqamətində işlər sürətlə davam etdirilir. Həm də Azərbaycanın bərpa olunan enerji potensialı çox yüksəkdir və dövlət başçımızın tapşırıqları ilə bu sahənin inkişaf əsas prioritetlərin arasındadır. Dövlətin hədəfi isə daha çox təmiz elektrik enerjisi itehsal etməklə Avropanın enerji bazarına daxil olmaqdır. Bu gün Azərbaycan həm ölkə daxilində yeni elektrik istehsal güclərin yaradılması istiqamətində sürətlə çalışır, həm də Avropa İttifaqı ölkələrinə istehsal etdiyi elektrik enerjisinin çatdırılması istiqamətində yeni xətlərin tikintisində iştirak edir.

Beləliklə də, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə müəyyənləşdirilən və həyata keçirilən geniş miqyaslı siyasi və iqtisadi islahatlar nəticəsində, sosial-iqtisadi sahədə, eyni zamanda beynəlxalq əməkdaşlıq sahəsində böyük uğurlar qazanılmışdır və bundan sonra da Azərbaycan öz gücü hesabına qarşıya qoyulmuş bütün məqsədlərinə çatacaq. Dövlət başçımızın söylədiyi kimi: "Əminəm ki, ilin sonuna qədər ölkəmizin uğurlu inkişafı təmin ediləcək".

***RƏFİQƏ KAMALQIZI***

## Prezident İlham Əliyevin İraq Kürdüstan Regionunun başçısı Neçirvan Bərzani ilə görüşü olub

İyulun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə işgüzar səfərdə olan İraq Kürdüstan Regionunun başçısı Neçirvan Bərzani ilə təkbətək görüşü olub.





AZƏRTAC xəbər verir ki, söhbət zamanı Prezident İlham Əliyev ilə Neçirvan Bərzani arasında bu ilin fevralında Münxendə keçirilən görüş xatırlandı. Həmin görüşdə əməkdaşlığın əsas istiqamətlərinin müəyyənləşdirilməsi ilə bağlı səmərəli müzakirələrin aparıldığı qeyd olundu, Neçirvan Bərzaninin səfərinin əməkdaşlığımızın dinamikasının artması işinə töhfə verəcəyi bildirildi. Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə davam etdi.

Görüşdə dövlətimizin başçısı İraq Prezidenti Əbdüllətif Camal Rəşidin Qoşulmama Hərəkatının Zirvə toplantısı çərçivəsində bu ilin martında Azərbaycana səfəri və ikitərəfli əlaqələrimizin inkişafına dair onunla apardığı müzakirələri, həmçinin İraq Baş nazirinin müavini, xarici işlər naziri Fuad Hüsseynin ölkəmizə səfəri zamanı keçirdiyi görüşü və əlaqələrimizin inkişafı ilə əlaqədar müzakirələri məmnunluqla xatırladtdı.

Söhbət zamanı İraq Kürdüstan Regionu ilə iqtisadi-ticari əlaqələrin genişləndirilməsi, sərmayələr, enerji sahəsində əməkdaşlıq, turizm imkanlarının artırılması, birbaşa aviareyslərin açılması və digər məsələlərlə bağlı müzakirələr aparıldı.

# Brüsseldə keçirilən altıncı görüşdən

# GÖZLƏNTİLƏR



Qərbin sülh danışıqları prosesindəki fəallığının artması müşahidə edilir və bu heç də səbəbsiz sayılmır. Qarabağda müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlı kontingentinin səlahiyyət müddətinin bitməsi tarixi yaxınlaşdıqca bu fəallığın bundan sonra daha da artacağı belə gözlənilləndir. Çünki regionda böyük güclərin maraqlarının toqquşması fonunda onların öz təsirlərini qorumaq, eləcə də bu təsirləri artırmaq istəyən qüvvələrin mövcud şəraitdən istifadə cəhdləri başadüşüləndir. Ona görə də Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması və sülh prosesi ilə bağlı danışıqların intensivləşməsi tamamilə məntiqidir, baxmayaraq ki, İrəvanın pozuculuq siyasəti sayəsində, görüşləri təşkil edənlər bu günə qədər istədikləri nəticəni ala bilməyiblər və belə görüşlərin keçirilməsi davamlı xarakter alıb. Məhz bu baxımdan, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə Prezident İlham Əliyevlə baş nazir Nikol Paşinyan arasında Brüsseldə keçirilən altıncı görüşün də sonuncu olmayacağı qənaətində hər kəs haqlıdır, amma heç şübhəsiz ki, bu görüş, aparılan danışıqlar, müzakirələr bütün dünyanın diqqət mərkəzindədir.

Danışıqların hansı platformada, hansı istiqamətdə, hansı şəkildə olmasından asılı olmayaraq, Azərbaycan tərəfi bu zamana qədər hər mənada, hər istiqamətdə irəliləyiş əldə edib və bundan sonra da gözlənilən yalnız uğur və nailiyyətdir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin keçirdiyi müşavirədə danışıqlar prosesinə toxunarkən söylədikləri ölkə rəhbərinin də müsbət fikirdə olduğu qənaətinə gəlmək üçün əsas verir, çünki cənab Prezidentin müəyyən irəliləyişlərin olduğuna əminliyi bunun üçün, bu qənaətə qəlinməsi üçün yetərlidir. Lakin Azərbaycan Prezidentinin də qeyd etdiyi kimi, indi çox şey İrəvandan və Ermənistanın prosesi başa çatdırmaq iradəsindən asılıdır.

Hazırda erməni cəmiyyətində olan çaxnaşma özü də təsdiq edir ki, Ermənistanın nə vəziyyətdə, hansı məğlub, acınacaqlı durumda olduğunu hər bir erməni belə yaxşı bilir. Yaxşı bilir ki, Brüsseldə də onları nə gözləyir. Hər bir halda erməni separatizminə haqq qazandırıla, don belə geyindirilə bilməz və bunun fonunda Ermənistan nəyə ümid edə bilər? Şarl Mişel də Brüsseldə erməni separatçıların müdafiə edə bilməz və etməz də. Brüssel görüşləri zamanı hər kəs bunun dəfələrlə şahidi olub və Azərbaycanın haqlı olduğu qənaətində də hər kəsin olduğu dəfələrlə öz təsdiqini tapıb. Belə olan halda, ermənilərin Brüsseldəki bu görüşdən də hansısa gözləntilərinin olmadığı ortaya çıxır. Təsadüfi deyil ki, Ermənistanın keçmiş xarici işlər naziri Vardan Oskanyan, paradoksal olaraq, bəyan edib ki, Paşinyan qeyri-adekvatlıq dərəcəsini daha artıra bilər və görüşdən öncə onun Azərbaycanın ərazi bütövlüyünü qəbul etməsi, etiraf etməsi hələ heç nə demək deyil, boş şeydir. Üstəlik, danışıqların "Sovet dövründə Qarabağ muxtariyyətinin qorunub saxlanılması" məntiqi ilə aparılmalı olduğu barədə təklifi də həm çox gülünc görünür, həm də məsələnin nə yerdə olduğu qənaətinə gəlməyə kömək edir. Deməli, bəlli olur ki, erməni cəmiyyəti artıq uduzduğunun fərqindədir, görüşlərdən özləri üçün heç bir irəliləyiş gözləmir və sadəcə, az da olsa, divident əldə etmək üçün dəridən-qabıqdan çıxır.

Müharibədə məğlub olduqları halda özlərini heç də məğlub olmayanlar kimi göstərməyə çalışanlar başlarını itiriblər. Nə istədiklərini özləri də bilməyənlər absurd fikirlər səsləndirməkdə bir-biriləri ilə sanki yarışa giriblər və həmin ölkədə ən axmaq fikir səsləndirən qalib hesab olunur. Əgər erməni cəmiyyəti, onun başbilənləri öz ölkəsini ötən əsrin 90-cı illərində Azərbaycanın düşdüyü vəziyyətlə müqaisə etmək istəyirsə, yenə də yanılır. Çünki arada böyük fərq var və ən böyük, ən əsas fərq ondadır ki, Azərbaycanın tərəfində ədalət olub və indi həm haqq-ədalət, həm də güc bizim tərəfimizdədir. Ermənistanın isə bunların heç birinə ümidi belə yoxdur. Belə ümidsizlik girdabında axmaqcasına dilemma ilə çıxış etmək, təbii ki, ancaq haylara məxsus ola bilər və bundan sonra nəyə isə ümid edənlər də belə axmaqlıq yarışında özlərini qalib hesab edənlər ola bilər. Bir-biri ilə bəhsə gədənlər, yarışanlar arasında Ermənistan Xarici İşlər Nazirliyinin indiki rəhbəri Ararat Mirzoyanın da olması, dəlilikdə, axmaqlıqda birinciliyi keçmiş həmkarına verməmək qərarına gələrək, rəsmi Bakının ünvanına ittihamlar səsləndirməsi həmin cəmiyyətin hansı anormal durumda olduğunu göstərir.

Ağdərədə baş verən faciəli hadisəyə - iki azyaşlı uşağın naməlum şəkildə analarından ayrılaraq bir neçə kilometr aralıda başqasının avtomobilində kilidlənməsi, uzun müddət maşından düşə bilməməsi və nəticədə də həddindən artıq isti olması səbəbindən ölməsi hadisəsəsinə görə isterik erməni mediasının Azərbaycanı günahlandırması təbii ki, hər şeydə azərbaycanlıları günahkar göstərmək niyyətində olan erməni xislətini ortaya qoyur və həmin xislətə bələd olanlar buna görə heç də təəccüblənmirlər. Amma bu xislət xarici işlər naziri səviyyəsində təzahür edəndə, eyni şeyi Ermənistanın XİN rəhbəri də deyəndə təəccüb hissi olmasa da tamam başqa bir dözülməz ağrılı hiss insanı əhatə edir və düşünürsən ki, gör biz hansı xislətlə, kimlərlə həm mübarizə aparırıq, həm də danışıqlar. Təsəvvür edək ki, axmaqlara, vəhşilərə insan cəmiyyətində yol verilir, yer ayrılır, çox vacib, əhəmiyyətli, olduqca məsuliyyətli bir sənədə imza atmaları üçün danışıqlar aparmaları məqsədi ilə ciddi, dərkli, düşüncəli insanların toplantısına gəlmələri təklif olunur. Bu zaman gözlənti nə ola bilər? Şarl Mileş özü də belə axmaqlardan bir şey gözləmir və ümid edir ki, nə səbəbdənsə, hansısa vaxtda bu məsələ ilə bağlı nəyə isə nail ola bilər. Təsadüfi deyil ki, Avropa İttifaqı Şurasının prezidenti növbəti görüş barədə də təkliflə çıxış edib, çünki bu görüşdən erməni axmaqlarının bir nəticə çıxardığını qətiyyən güman etmir. Ola bilsin növbəti görüşə qədər axmaqlıqlarını yerə qoyacaqları barədə düşünür.

Münaqişənin bitdiyini və sülhün təmin olunmasının vacibliyini hər kəs qəbul edir. Lakin erməni cəmiyyəti hələ də axmaqcasına hansısa manipulyasiyalar etməyi, bununla da məsələni uzatmağı vəziyyətdən guya çıxış yolu hesab edir. Amma bu cəmiyyət axmaqlığı, xam xəyallatrı bir tərəfə qoyub başa düşməlidir ki, çıxış yolu bu deyil və rəsmi İrəvan mütləq məğlubiyyəti dərk edərək xarici siyasətindən tutmuş, doktrinasına qədər geniş dəyişikliklərə getməlidir. Əks halda bunun acı nəticələri ilə yenə də ermənilər özləri qarşılaşmalı olacaqlar. Onsuz da Azərbaycanın gücü, qüdrəti qarşısında tab gətirə bilməyəcəklər və hər təxribatlarına, hər manipulyasiyalarına görə özləri ağrı çəkirlər. Bu baxımdan beynəlxalq görüşlərdə də daşı ətəklərindən töküb, danışıqlarda müsbət nəticələr əldə olunmasına rəvac verə bilən normal davranışlar sərgiləməlidirlər.

Azərbaycan tərəfi istənilən halda öz məqsədlərinə nail olmaqdadır və bunu Brüsseldə də bilirlər, Vaşinqtonda da, Moskvada da. Çünki bilirlər ki, haqq da qanun da Azərbaycanın tərəfindədir və haqlı, qanuni, ədalətli mövqeyini qoruması üçün ölkəmizin gücü də, qüdrəti də yetərincədir. Beynəlxalq ictimaiyyət belə yaxşı başa düşür ki, Qarabağda qanunsuz silahlı birləşmələrə qarşı hərəkətə keçmə vaxtı əvvəlkilərdən daha yaxın görünür. Separatçılığın, terrorçuluğun qarşısının alınması isə heç bir müstəvidə pislənə bilməz və bu baxımdan Azərbaycanın növbəti əməliyyatına kiminsə ağız belə büzə bilməyəcəyi təkzib edilən deyil. Elə buna görə də Brüsseldə Ermənistan tərəfi bütün bunları nəzərə almalıdır. Təbii ki, Şarl Mişel mövcud vəziyyəti çox yaxşı başa düşür və tərəflərin görüşməsi üçün vasitəçiliyi də bu baxımdan anlaşılandır. Doğrudur, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə Prezident İlham Əliyevlə baş nazir Nikol Paşinyan arasında Brüsseldə keçirilən görüşün nəticələri barədə bu gün danışmaq hələ tezdir, amma hər bir halda Azərbaycan tərəfinin diplomatik müstəvidə də qalibiyyəti zərrə qədər şübhə doğura bilməz. İstənilən halda Azərbaycanın irəliləyişlər, uğur və nailiyyətlər qazanmaqda olduğu göz önündədir və ümid edirik ki, bu, Brüsseldə erməni baş nazirinə də, onun hakimiyyət komandasına da başa salınacaq.

***İnam Hacıyev***

# Böyük Qayıdış: Laçında yeni həyat

Zəfər qazanan Azərbaycan Qarabağımızda böyük quruculuq işlərini davam etdirir. Şuşada, Zəngilanda, Laçında və digər ərazilərdə aparılan genişmiqyaslı abadlıq-quruculuq işləri işğaldan azad olunan hər bir şəhər, qəsəbə və kəndin müasir məkana çevriləcəyindən xəbər verir. Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın bu ərazilərimizə səfərləri zamanı görülən işlərlə tanışlıq və təməlqoyma mərasimlərinin keçirilməsi böyük abadlıq-quruculuq işlərinin davamı olmaqla yanaşı, görülən işlərin sürətlə aparıldığını bir daha təsdiqləmiş olur.Tamamilə yeni bir dövr yaşanılır və bu torpaqların əzəli sakinlərinin işğaldan azad edilmiş torpaqlara mərhələ-mərhələ qayıdışı böyük canlanmaya səbəb olub. Ağalı kəndinə əhalinin köçürülməsi Böyük Qayıdışın ilk sorağı idisə, artıq bu istiqamətdə aparılan işlərin məntiqi olaraq köç karvanları digər ərazilərimizə də yol alırlar. Ağalı, Talış kəndi, sonra isə Laçın İlk olaraq 20 ailə Laçına yerləşdirildi. Əzəli sakinlərin Laçınla, doğma yurdla görüşü böyük qürura səbəb oldu. Kimi qəhərləndi, kimisi də sevincdən göz yaşı tökdü. Tələsik yurd yerlərin tərk edənlərin burada olan xatirələri çözələndi. Dost, qohum-qardaş itkisi xatirələri oyatdı. Uşaqlıq xatirələri bu torpaqda idi. İtirdikləri və bu gün qovuşduqları məkan. Əlbəttə ki, bu gün Zəfər qazanmış xalq olaraq bu torpağa ayaq basır. Erməniyə dərs verən və ona kimliyini göstərən Qalib Xalq kimi. Bu Qələbə əlbəttə ki, Azərbaycanın iqtisadi gücünün, dinamik inkişafının göstəriciləri sırasındadır. İşğaldan azad edilmiş bütün ərazilərimizdə, o cümlədən Laçın rayonunda abadlıq-quruculuq işləri sürətlə davam etdirilir. Yeni yollar salınır, infrastruktur qurulur, kəndlər, qəsəbələr bərpa edilir. Planlı və sistemli şəkildə görülən bütün işlər bilavasitə dövlətimizin başçısı cənab İlham Əliyevin nəzarəti altındadır. Müharibədən ötən müddət ərizində görülən işlər bu ərazilərdə əzəli sakinlərin tam yaşayışının təmin edilməsinin təzahürüdür. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirmişdir: "Əziz laçınlılar, siz uzun illər əzab içində yaşamısınız, həm fiziki, həm mənəvi, ağır şəraitdə, yataqxanalarda, vaqonlarda, çadır şəhərciklərində. Ondan daha ağırı mənəvi əzab idi. Yəni, öz doğma torpağına qayıda bilməmək əzabı dəhşətlidir. Bunu hər kəs başa düşməlidir və başa düşür. Mən dəfələrlə həm Laçından, həm də o vaxt işğal edilmiş digər rayonlardan köçkünlərlə görüşəndə onlara ürək-dirək verirdim deyirdim ki, qayıdacağıq, qayıdacağıq! Görürdüm ki, son vaxtlar ümidlər bir az səngiyir, bu da təbiidir. Yəni, 30 ilə yaxın. Bunu anlamaq olar. Amma deyə bilmirdim ki, nə vaxt qayıdacağıq. Necə deyə bilərdim? Amma bilirdim ki, qayıdacağıq və əgər indi 11 il bundan əvvəlki görüşün videoyazısına baxsanız, görərsiniz demişdim ki, qayıdacağıq və Laçında daha gözəl evlər tikiləcək. Bax, belə də oldu. Ona görə sizin üçün və sizin kimi keçmiş köçkünlər üçün şərait ən yaxşı olmalıdır, ən gözəl olmalıdır ki, siz uzun əzablı illərdən sonra burada rahat yaşayasınız".







## LAÇIN ŞƏHƏRİNDƏ 93 AİLƏNİN MƏSKUNLAŞMASI TƏMİN EDİLİB

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq bərpa edilən və yenidən qurulan Laçın şəhərinə məcburi köçkünlərin qayıdışı davam edir. İyunun 14-də növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən Laçına yola salındı. Daha 22 ailə - 72 nəfər doğma yurda dönüşün sevincini yaşadı. Köçürülən ailələr, əsasən, Bakı və Sumqayıt şəhərlərində, həmçinin Abşeron rayonunda müvəqqəti məskunlaşma yerlərində ən ağır şəraitdə yaşayan məcburi köçkünlər arasından seçilmişdi. Onlar Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşacaqlar. Keçmiş məcburi köçkünlərin bərpa edilən və yenidən qurulan Laçın şəhərinə qayıdışı davam edir. İyulun 13-də növbəti köç karvanı Laçına yola salındı. Köç karvanında 23 ailə olmaqla 85 nəfər Laçına çatıb. Bununla da, Laçın şəhərində 93 ailə, yəni 351 nəfərin daimi məskunlaşması təmin edilib. Köçürülən ailələr, Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşıblar.

## QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARI ƏRAZİSİNDƏ İCRA OLUNAN LAYİHƏLƏR

Bu gün işğaldan azad olunan ərazilərin bərpası və Böyük Qayıdışın yüksək səviyyədə təmin edilməsi məqsədi ilə ardıcıl işlər görülür. Azərbaycan Prezidenti İlham Əliyevin həmin ərazilərə səfər etməsi və bərpa-quruculuq işləri ilə şəxsən maraqlanması, istehsal müəssisələrinin, sosial obyektlərin təməlqoyma, açılış mərasimlərində iştirak etməsi görülən işlərin sürətini artırmaqla yanaşı, keyfiyyətinin də yüksək olmasından xəbər verir. Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən, abadlıq-quruculuq işləri sırasında yollarının yenidən qurulması, müasir şəhər, qəsəbə səviyyəyə çatdırılması istiqamətində çox mühüm layihələr icra olunur. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazisində icra olunan və işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biri sayılan Əhmədbəyli-Füzuli-Şuşa avtomobil magistralının tikintisinin 2024-cü ildə başa çatdırılması planlaşdırılır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş ərazilərimizin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən olan Füzuli-Hadrut avtomobil yolunun tikintisi sürətlə və keyfiyyətlə yerinə yetirilib. Bu yol başlanğıcını "Zəfər yolu"ndan götürür və yeni inşa edilən Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yoluna birləşir. Füzuli-Hadrut avtomobil yolu dörd hərəkət zolaqlıdır. Yolun hərəkət hissəsinin eni 14 metrdir. Layihəyə əsasən, yolun 6,7 kilometrliyində "Qarğabazarı" adlanan ərazidən keçən hissəsində birasırımlı avtomobil körpüsü inşa olunub. Körpünün uzunluğu 18 metr, eni isə 21 metrdir.

## ŞÜKÜRBƏYLİ KƏNDİNDƏ 1042 AİLƏ MƏSKUNLAŞACAQ

Cəbrayıl rayonunun Şükürbəyli kəndinin təməlinin qoyulması da bu ərazilərdə tezliklə yeni həyatın başlanacağından xəbər verir. Şükürbəyli kəndində 1042 ailənin məskunlaşması planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 298 hektardır. Burada məskunlaşacaq əhalinin yaşayış yükünü nəzərə alaraq, məhəllələrin salınmasının birinci mərhələsi üçün 184 hektar torpaq sahəsi ayrılıb. Bu mərhələdə kənddə 635 fərdi evin tikilməsi nəzərdə tutulur. Baş plana əsasən, bu kənd ərazi vahidinə görə bir-birinə yaxın olan Dejəl, Şıxəliağalı kəndləri və Mahmudlu qəsəbəsi ilə birlikdə layihələndirilib. Kənddə məktəb binası, uşaq bağçası, inzibati bina, klub icma mərkəzi və çoxfunksiyalı bina, ticarət mərkəzi, bazar, idman sağlamlıq mərkəzi, tibb məntəqəsi, mərasim zalı, məscid qonaq evinin inşası planlaşdırılıb. Cəbrayıl rayonunda Xudafərin qəsəbəsinin təməlinin dövlət başçısı tərəfindən qoyulması o deməkdir ki, işğaldan azad olunan hər bir ərazimizdə əzəli sakinlər tezliklə azad və rahat bir şəraitdə yaşamağa başlayacaqlar.

Qəsəbə Azərbaycan xalqı üçün tarixi əhəmiyyət daşıyan Xudafərin körpüsünün yaxınlığında, yeni dəmir yolu xəttindən və avtomobil yolundan 7 kilometr məsafədə salınır. Qəsəbənin layihələndirilən ümumi ərazisi 25 hektardır. Baş plana əsasən, gələcəkdə burada 149 ev tikiləcək. Qəsəbədə birinci mərhələdə 20 evin inşası nəzərdə tutulur. Burada iki, üç, dörd və beş otaqlı fərdi evlər tikiləcək. Hər evin həyətyanı sahəsi 600 kvadratmetr təşkil edəcək. Qəsəbəyə birinci növbədə 77 sakin köçürüləcək. Xudafərin qəsəbəsində məktəb, uşaq bağçası, inzibati bina, məscid, bazar, çoxfunksiyalı bina (ticarət müəssisələri, tikinti materiallarının satış zonası, ictimai qida müəssisələri və s.), mədəniyyət evi, "Karvansaray" hotel və icma evi də yaradılacaq.

## AZƏRBAYCAN İNKİŞAF VƏ TƏRƏQQİ DÖVRÜNDƏ

Qeyd edək ki, dövlət başçısının Cəbrayıl rayonuna səfəri çərçivəsində bu ərazidə Horovlu kəndinin təməlini qoyması ona əsaslanır ki, bütün işğaldan azad olunan ərazilərimizdə görülən işlər paralel olaraq aparılır. Layihələndirilən ümumi ərazi 248,1 hektardır. Perspektivdə bu kənddə 3470 nəfərin (867 ailə) yaşaması nəzərdə tutulub. Baş plana əsasən, köhnə Horovlunun ərazisini əhatə edən bu kənd ərazi vahidinə görə bir-birinə yaxın olan Çapand, Safarşa, Fuğanlı və Həsənqaydı kəndləri ilə birlikdə layihələndirilib. Birinci mərhələdə Horovluya 1395 nəfərin köçürülməsi üçün 334 fərdi ev tikiləcək. İnşa ediləcək evlər iki, üç, dörd və beş otaqlı olacaq. Kənddə məktəb binası, uşaq bağçası, inzibati bina, klub icma mərkəzi və çoxfunksiyalı bina, bazar kompleksi, idman sağlamlıq mərkəzi, tibb məntəqəsi, mərasim zalı, qonaq evinin tikintisi planlaşdırılıb. Əhalinin məşğulluğunun təmin edilməsi üçün zəruri tədbirlər də görüləcək. Kəndin dayanıqlı su təchizatını təmin etmək məqsədilə burada əvvəllər mövcud olmuş kəhrizlərin bərpası üçün layihə də həyata keçirilir.

Füzuli rayonunun Dədəli kəndinin təməlinin qoyulması mərasimini də qeyd etməliyik. Kəndin layihələndirilən ümumi ərazisi 314 hektardır. Bu kənddə 4495 nəfərin (1129 ailə) məskunlaşması nəzərdə tutulub. Tikiləcək 1050 fərdi evin hər birinin həyətyanı sahəsi 1200 kvadratmetr olacaq. Qeyd edildi ki, birinci mərhələdə Dədəli kəndində 1373 nəfərin yaşayacağı 327 fərdi ev tikiləcək. Kənddə çoxfunksiyalı inzibati bina, məscid və mərasim evi, yanacaqdoldurma məntəqəsi, aptek, idman klubu, tibb mərkəzi, 840 yerlik orta məktəb, 100 yerlik iki uşaq bağçası, istirahət və yaşıllıq zonaları, klub-icma mərkəzi və kitabxana, ticarət obyektləri, bazar fəaliyyət göstərəcək. Dədəli kəndi də tarixi ənənələri qorumaqla müasir üslubda layihələndirilib. Enerjiyə qənaət məqsədilə bu kənddə də alternativ enerjidən istifadə, istilik tutumlu evlərin layihələndirilməsi nəzərdə tutulub. Bu yaşayış məntəqəsində əhalinin məşğulluğunun təmin edilməsi də diqqət mərkəzində olacaq. Kənddə tikinti işlərinin 2025-ci ilin noyabrında başa çatdırılması planlaşdırılır.

Bütün bunlar Cənab Prezidentin düşünülmüş siyasətinin məntiqi nəticəsidir. Ölkəmizin inkişafı istiqamətində həyata keçirilən layihələr öz nəticəsini verir. İnkişaf və tərəqqi dövrünü yaşayan Azərbaycanın işğaldan azad olunan ərazilərində həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat ölkənin əsas inkişaf göstəriciləridir.

***Zümrüd BAYRAMOVA***

# Qrantyeyənlərin "təhsil fondu"

## Mütəxəssislər qaranlıq niyyətli fond barədə nə düşünürlər?

Londonda İngiltərə və Uels üçün Xeyriyyə Komissiyası tərəfindən "Azərbaycan Gənclərinin Təhsil Fondu" adlı qurumu təsis edilməsi cəmiyyətdə birmənalı qarşılanmayıb. Hər kəsi düşündürən bir sual var, bu fondun məramı və məqsədi nədir və onu niyə uzaq Britaniyada təsis ediblər? Bunun Azərbaycanla yaxından-uzaqdan nə əlaqəsi ola bilər? Və ən əsası, "təhsil fondu" adlanan qurum "alim və tələbələrin" təhsil və təcrübələri, elmi araşdırmaları üçün tələb olunan külli miqdarda vəsaiti hansı mənbələr hesabına formalaşdıracaq? Suallar çox, cavab isə yox...





Tutaq ki, vəsait, yəni para tapıldı, təhsil almaq istəyən də cəmillərin, ariflərin, qubadların "xeyirxah" əməllərindən faydalanaraq Avropanın tanınmış universitetlərində təhsil aldılar, bəs sonra? İnanmaq olarmı ki, gənclərin təhsilinə külli miqdar pul xərcləyən bu "fond" oxutdurduğu tələbələri Azərbaycan xalqına xidmət etmək üçün geri göndərəcək? Gəlin, sadəlövh olmayaq, bu günün reallığı budur ki, məqsəd olmadan kimsə başqası üçün pul xərcləmək istəmir. Bir az da konkretləşdirsək, tələbələrin, alimlərin yetişməsi üçün pullar xərcləyənlər onların "ipini" də əllərində saxlamağa, istədikləri vaxt özlərinə xidmət etdirməyə çalışacaqları şübhəsizdir. Əslində "Fond"un təsisçiləri də bu incə üsuldan istifadə edirlər. Azərbaycanın savadlı gənclərini pulsuz təhsil vermək adı altında öz tərəflərinə çəkmək, çirkin oyunlarına şərik etmək, onların savadından, istedadından istifadə etmək layihənin əsas məqsədidir.





Qeyd edək ki, Londonda İngiltərə və Uels üçün Xeyriyyə Komissiyası tərəfindən "Azərbaycan Gənclərinin Təhsil Fondu" qeydə alınıb. Hələlik kağız üzərində olan bu qurumun təsisçiləri Milli Şuranın fəxri sədri, bu yaxınlarda ABŞ-dan qovulan tarix professoru Cəmil Həsənli, yeganə satqın diplomat statusunu daşıyan və xəyanət cəzasından yayınmaq üçün Avropa dövlətlərindən birinə qaçan Arif Məmmədov, o cümlədən iqtisadiyyatda heç bir uğur qazana bilməyən, əvəzində siyasi partiyasını da itirən Qubad İbadoğludur.

### Bəs bu barədə ekspertlər nə düşünür?

**Siyasi şərhçi Azər Həsrət bildirib ki, təhsil elə bir strateji məsələdir ki, burada özfəaliyyətə yer verilməməlidir:** "Özəlliklə də öz dövlətinə deyil, xarici dövlətlərə bağlı adamlar Azərbaycan təhsilinə bu cür müdaxilə etməməlidir. Əlbəttə ki, kiməsə hansısa formada dəstək olmaq istəyirlərsə, bu başqa məsələdir. Lakin belə məsələlər Azərbaycan dövlətinin bilgisi çərçivəsində olmalıdır. Bildiyiniz kimi, uzun illər Azərbaycanda xüsusilə dini təhsil istiqamətində hərcmərclik vardı. Yerindən duran hər kəs şübhəli ölkələrdə ali dini təhsil alır və yenidən qayıdaraq anti-Azərbaycan fəaliyyətlərə qurşanırdı. Belə şeylərə görə Azərbaycanın başı az ağrımayıb. Bu baxımdan düşünürəm ki, nəinki dini, ümumiyyətlə dünyəvi təhsil ilə bağlı da özfəaliyyətə yol verilməməlidir. Ona görə də Azərbaycan vətəndaşları bu cür adamların qurduğu "fond"a müraciət edərkən ciddi düşünməlidir. Eyni zamanda, dövlət də vaxtında öz xəbərdarlığını etməlidir".

**Azadlıq Hərəkatçılar Birliyinin sədri Təhmasib Novruzov:** "Açığını deyim ki, cəmiyyətə gərəksiz hesab etdiyim bu adamların millətin xeyrinə, cəmiyyətin inkişafına xidmət edəcəklərinə inanmıram. Əslində, bu gün Azərbaycan cəmiyyətində gənclərin təhsil məsələsi prioritet məsələlərdəndir və bu baxımdan belə bir "fond"un yaradılması gözqamaşdırıcı hesab edilə bilər. Lakin yaradılan istənilən yeni təsisatın gələcəyi onu yaradanların kimliklərindən çox asılıdır. Bu baxımdan Cəmil Həsənli, Arif Məmmədov və Qubad İbadoğlu kimi adamların milli mənafelər naminə fəaliyyət göstərəcəklərinə inanmıram. Ola bilsin ki, belə bir "fond" yaradılması xaricdən verilən siyasi məqsədli sifarişlə bağlıdır. Yəni, Fətullah Gülənin "camaat" formalaşdırması yönündə fəaliyyət məqsədi ola bilər. Bu isə cəmiyyətin bütövlüyünü, birliyini pozmaq üçün ən səmərəli üsullardan biridir. Yəni, gəncləri bu "fond" vasitəsilə təhsilə cəlb etmək, xaricdən ayrılan vəsaitlər hesabına oxutmaq, sonra da müxtəlif dövlət strukturlarında yerləşdirərək hakimiyyətə təsir rıçaqları əldə etmək. Nəticə haqqında isə danışmağa ehtiyac görmürəm. 2016-cı ilin yayında qardaş Türkiyədə baş verən məlum "15 temmuz" hadisəsini xatırlasaq kifayətdir. Yəni, bu adamların millətin gələcək inkişafına xidmət edəcəklərinə şübhə etdiyim üçün bu qənaətdəyəm".

**Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev:** "Bu, sadəcə, ölkədə vəziyyəti qarışdırmaq məqsədi daşıyır. Gəncləri xaricə göndərməklə guya onlara kömək etməyə



çalışırlar. Özlərini qayğıkeş kimi göstərirlər. Amma Cəmil Həsənlinin yaratdığı "fond"a qoşulanlar olacaqsa, onlar bədbəxtdirlər. Mən bu addımı mənasız hesab edirəm. Həm xaricdə, həm də daxildə düşmənlərimiz çoxdur. Onlar hərtərəfli çalışırlar ki, ölkə başçısının apardığı uğurlu siyasətə maneçilik törətsinlər. Amma buna nail ola bilməyəcəklər. Nə qədər ki, bizlər varıq, imkan verməyəcəyik. Cəmil Həsənli ilk növbədə özü ağıllansın, daha sonra "təhsil fondu" yaratsın. Doğrudur, bizim təhsilimizdə bəzi nöqsanlar var. Bu sahədə müəyyən işlər aparılır. Qubad İbadoğlu, Cəmil Həsənli və digərləri qondarma "təhsil fondu" yaradaraq ölkədə ortalığı qarışdırmağa çalışırlar. Onların arxasında duran xarici qüvvələrdir, hansı ki, Azərbaycanın bugünkü gündə uğurlu siyasət aparmasına və regionda söz sahibi olmasına kölgə salmaq istəyirlər. Bu cür satqın adamların əli ilə buna nail olmaq istəyirlər".



**Deputat Tahir Kərimli isə məsələyə münasibətində qeyd edib ki, Cəmil Həsənli, Qubad İbadoğlu və Arif Məmmədovun "Azərbaycan Gənclərinin Təhsil Fondu"nu qeydiyyata saldırması qrant mənimsəmə oyunlarından başqa bir şey deyil:** "Bu işləri yaxşı bilirəm. Xaricdəkilər Azərbaycanın daxili işlərinə qarışmaqdan ötrü ya insan hüquqları ilə əlaqəyə keçir, ya da ictimai işlər, QHT-lər yaradır və onları maliyyələşdirirlər. Əslində, iqtidara təsir yolları əldə edirlər. Həmin bu adamlar da gənclərin beynini yumaq, onları Qərbin istədiyi istiqamətdə yönəltmək istəyirlər. Cəmil Həsənli Azərbaycan hakimiyyətini və Prezidenti Ermənistana sərt mövqe tutmaqda ittiham edirlər. Bir vaxtlar deyirdilər ki, iqtidar deputatları xalqın xeyrinə danışmağa məcbur edir. Biz onları yaxşı tanıyırıq. Biz halal əməkhaqqımızı alırıq. Amma onlar belə qondarma fondlar yaradaraq qanunsuz maliyyələr əldə edirlər. Yaxşı bilirik ki, onlar hakimiyyətə gəlməkdən ötrü Rusiyadakı "Milyonerlər İttifaqı" ilə əlaqələr qurur. Biz neçə il işsiz olmuşuq, amma heç bir xarici dövlətə baş əyməmişik və onların oyuncağı olmamışıq. Cəmil Həsənli və digərlərinin yaratdığı fond gənclərin beynini yumaqdan, onları Qərbin mənfi siyasətinə inandırmaqdan başqa bir şey deyil".

Göründüyü kimi, "Təhsil Fondu" yaradanların "xeyirxah" əməlini kimsə təqdir etmir. Çünki, ictimaiyyətin fəal nümayəndələri, QHT və partiya sədrləri, media mütəxəssisləri adıçəkilən şəxslərin bu günə qədər keçdiyi "həyat yolu"nun xəyanətkarlıqlarla dolu olduğunu bilir, ona görə də gənclərimizi, gənc alimlərimizi avantüristlərin toruna düşməməyə çağırır.

***V.SALAH***










# İsmayıllıda "Media və din" adlı üçgünlük seminarın açılış mərasimi olub



İyulun 18-də Mənəvi Dəyərlərin Təbliği Fondunun təşkilatçılığı ilə İsmayıllı rayonunda bir sıra mətbuat nümayəndələri üçün "Media və din" adlı üçgünlük seminarın açılış mərasimi olub. SİA-nın xəbərinə görə, tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərov, Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov, Fondun Himayəçilik Şurasının üzvü, "SƏS" Media qrupunun rəhbəri Bəhruz Quliyevin məruzələri dinlənilib.

Daha sonra Fondun beşillik fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş etdirilib. Xatırladaq ki, tədbir çərçivəsində iştirakçılar üçün seminarlar keçiriləcək, Azərbaycan Yazıçılar Birliyinin İdarə Heyətinin üzvü, "Azərbaycan" jurnalının baş redaktorunun müavini, ədəbi tənqidçi, yazar Əsəd Cahangirin, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin şöbə müdiri, jurnalist Yadigar Məmmədlinin məruzələri dinləniləcək, mətbuat nümayəndələrinin iştirakı ilə müxtəlif mövzular ətrafında müzakirələr aparılacaq, İsmayıllı rayonunda yerləşən bir sıra tarixi məkanlara ekskursiyalar təşkil olunacaq.

# Sülhməramlı missiya, yoxsa Brüssel formatı

**Bu gün Rusiya Federasiyasının sülhməramlı missiyası əvvəllər onun qaynar nöqtələrə daxil olmasına razılıq vermiş münaqişə tərəfləri tərəfindən şübhə altına alınır. Moldova NATO-dan Rusiyanın Dnestryanı bölgəsində hərbi mövcudluğu məsələsini qaldırmağı xahiş edib. NATO-nun Vilnüs sammitində Rusiya ordusunun bölgədən çıxarılması ilə bağlı qətnamə qəbul edilib. Əgər əvvəllər söhbət Dnestryanı bölgədə yerləşən Rusiya qoşunlarının Əməliyyat Qrupundan gedirdisə, bu gün həm də beynəlxalq mülki müşahidəçilərlə əvəz edilməsi təklif olunan Rusiya Federasiyasının sülhməramlılarından gedir. Təklif Kişinyovdan gəlir və Avropa İttifaqı və ABŞ-da dəstəklənir.**




Kişinyov həmçinin Aİ və ABŞ-ın 5+2 danışıqlar formatında (Moldova, Dnestryanı - tərəflər, Rusiya, Ukrayna, ATƏT - vasitəçi, Aİ və ABŞ - müşahidəçi) statusunu müşahidəçidən vasitəçi statusuna dəyişməyi təklif edir. Kişinyov açıq şəkildə deyir ki, yaxın gələcəkdə Dnestryanı bölgənin taleyini məhz Aİ və ABŞ həll edəcək. Moldova baş nazirinin reinteqrasiya məsələləri üzrə müavini Oleq Serebryanın sözlərinə görə, format dəyişdirilərək Aİ və ABŞ-ın statusunu vasitəçilər səviyyəsinə qaldırmalıdır. Həm də Rusiya sülhməramlılarının Dnestryanı bölgədən çıxarılması ilə bağlı məsələni həll etmək. Lakin Serebrian qeyd edib ki, "biz bugünkü Rusiya ilə bunu müzakirə etməyəcəyik". Vaxtilə Dnestryanı münaqişəni alovlandıran və sonra "dayandıran" Rusiya danışıqlar prosesində əsas olmaqdan çıxır, ümumiyyətlə, Moskvanı Moldova ərazilərindən geri çəkilməyə çalışırlar.

Ötən gün Moldovanın Xarici İşlər və Avropaya İnteqrasiya Nazirliyi (XİN) bəyanatla çıxış edərək Moskvadan respublikanın daxili işlərinə qarışmamağı və heç bir məsələni, o cümlədən kilsə, media, dillə bağlı və s. şərh etməməyi xahiş edir.

Rusiyanın sülhməramlı missiyasının Qarabağda mövcudluğu da eyni aqibəti yaşayır. Tərəflər Rusiya hərbçilərinin bölgədən getmələrinə təxminən eyni reaksiyanı verirlər. Baxmayaraq ki, Rusiya Federasiyasının "mavi dəbilqəliləri"nin 1992-ci ildə daxil olduğu Dnestryanıdan fərqli olaraq, 2020-ci ildən Qarabağda xidmət edirlər, üstəlik, əgər əvvəllər Rusiya Federasiyasına qarşı iddialar rus əsgərlərinin Qarabağda yaşayan və özlərinin daha fəal müdafiə olunmalarını istəyən ermənilər tərəfindən irəli sürülübsə, bu gün azərbaycanlılar da bunu edir. Rusiya Xarici İşlər Nazirliyinin Qarabağ ermənilərinə aydın təhlükəsizlik təminatlarının verilməsinin, eləcə də Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası prosesinə başlanmasının zəruriliyi ilə bağlı bəyanatı iki dövlət arasında strateji müttəfiqlik haqqında Bəyannaməyə uyğun gəlmir. Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyi məlumat yayıb.

Rusiya Xarici İşlər Nazirliyinin şənbə günü yaydığı bəyanatda deyilir ki, 2022-ci ilin oktyabrında və 2023-cü ilin mayında Ermənistan Qarabağı Azərbaycan ərazisinin bir hissəsi kimi tanıyıb. "Biz Ermənistan rəhbərliyinin suveren qərarına hörmət edirik, lakin bu, Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 9 noyabr 2020-ci il tarixli Bəyanatının imzalanmasının əsas şərtlərini, habelə regionda yerləşdirilən Rusiya sülhməramlı kontingentinin mövqeyini kökündən dəyişib", - Rusiya Xarici İşlər Nazirliyinin bəyanatında deyilir. Azərbaycan Xarici İşlər Nazirliyi belə bir bəyanatdan məyus olduğunu bildirib.

Eyni zamanda, Azərbaycan Prezidenti İlham Əliyev Brüssel danışıqlar formatının səmərəliliyini qeyd edib. Ermənistan və Azərbaycan liderləri Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin iştirakı ilə görüşüblər. Bununla belə, Nikol Paşinyan Avropa platformasında aparılan danışıqlardan da müsbət danışıb. Moskva tərəflər arasında danışıqlar üçün öz ərazisində bir araya gəlməyi bəyan edib, lakin hələlik bu məsələ ilə bağlı daha ətraflı məlumat yoxdur.

Qeyd edək ki, istər Qarabağda, istərsə də Dnestryanıda münaqişə tərəfləri Kremlə deyil, Rusiya Xarici İşlər Nazirliyinin verdiyi bəyanatlara əsaslanaraq iddialarını bildirirlər. Əgər bu, Rusiyanın xarici siyasət idarəsi tərəfindən düşünülmüş davranış xəttidirsə, o zaman Kremlin addımları nə olacaq? Belə görünür ki, məqbul sayılan variant sülhməramlı missiyanın ləğvidir. Əks halda, yəqin ki, bölgədə təhlükəsizlik, Azərbaycanın suveren hüquqlarının bərpası üçün başqa yanaşmalar axtarmaq, taktikanı dəyişmək lazım gələcək.

***V.VƏLİ***



## YAP Təftiş Komissiyasının növbəti iclası keçirilib

**İyulun 18-də Yeni Azərbaycan Partiyası (YAP) Təftiş Komissiyasının növbəti iclası keçirilib. YAP Təftiş Komissiyasının sədri, Milli Məclisin deputatı Sevinc Hüseynova iclasın gündəliyi və müzakirəyə çıxarılan məsələlər barədə məlumat verib.**

İclasda partiyanın Bakı şəhəri üzrə yerli təşkilatlarında aparılan təftiş zamanı aşkar olunmuş nöqsanların aradan qaldırılması barədə Təftiş Komissiyasının qərarlarının icra vəziyyəti, 2023-cü ilin ikinci yarımilliyi üzrə iş planı və partiyanın yerli təşkilat aparatlarında təftişin aparılmasına dair Təftiş Cədvəli və digər cari məsələlər müzakirə olunub. YAP Təftiş Komissiyasının üzvləri gündəlikdə duran məsələlərə münasibət bildiriblər. Müzakirələrdən sonra gündəliyə çıxarılan məsələlərlə bağlı müvafiq qərarlar qəbul edilib.

# Ermənistanın ekoloji terroruna QHT rəsmilərinin BAXIŞI

**Ermənistan tərəfindən hava və suyun çirkləndirilməsi nəticəsində milyonlarla insanın həyatı və ətraf mühit təhlükədədir. Azərbaycanda fəaliyyət göstərən vətəndaş cəmiyyəti təşkilatları beynəlxalq ictimaiyyətə və BMT-yə müraciət ünvanlayıblar. SİA sözügedən məsələ ilə bağlı QHT rəsmiləri arasında sorğu keçirib.**



**"Sağlamlığa Xidmət" İctimai Birliyinin sədri Pərvanə Vəliyeva deyib:** "Bu gün bir qrup vətəndaş cəmiyyəti fəalı ilə birgə BMT və bir sıra beynəlxalq qurumlara təcili müraciət ünvanlamışıq. Müraciətdə qeyd edilib ki, milyonlarla insanın həyatı və ətraf mühit təhlükə altındadır. Çünki burada Ermənistan Respublikasının uzun illərdir davam etdirdiyi ekoloji terrorlar son zamanlarda daha da intensivləşib. Biz də sübutlar və əsaslandırılmış faktlar əsasında Ermənistanın törətdiyi ekoloji cinayətləri beynəlxalq ictimaiyyətə, dünya birliyinə çatdırmaq qərarına gəldik. Bu məqsədlə həmin təcili müraciəti beynəlxalq qurumlara ünvanladıq. Beynəlxalq qurumlar öz növbəsində öz səlahiyyət və mandatlarından istifadə edərək bu məsələyə müdaxilə edib adekvat reaksiya verə bilərlər, hətta texniki baxışlar üçün missiya təşkil edə bilərlər.




Biz müraciətimizdə qeyd edirik ki, burada BMT konvensiyalarının kobud şəkildə pozulmasından söhbət gedir. Məsələn, transsərhəd çaylar, ətraf mühitin qiymətləndirilməsi üzrə 1991-ci il ESPO konvensiyası - bu konvensiyaya həm Azərbaycan, həm də Ermənistan tərəfi imza atıb və burada qeyd edilir ki, ekoloji məsələlər milli sərhədləri aşır və ətraf mühitə təsir edə biləcək hər hansı bir hadisə baş verdikdə bu, mütləq hər iki tərəfin beynəlxalq danışıqlar aparması və razılaşdırılması ilə aparılmalıdır. Azərbaycan tərəfinin razılığı olmadan Ermənistan həm sərhəddə iri metallurgiya zavodu tikir, həm də transsərhəd mövqedə ölkəmizdən də keçən, o cümlədən, digər ölkələr - İrandan da keçən çayları çirkləndirir. Uzun illərdir Araz çayının çirklənməsi baş verir və bu istiqamətdə biz transsərhəd çaylar haqqında konvensiyanı əsas götürürük. Bütün bu hallarda konvensiyanın tələbləri isə pozulur. Biz müraciətimizdə 12 fakt qeyd etmişik ki, 12 fakt üzrə müxtəlif mədən sənayesi müəssisələri, kombinatlar, ağır metal tullantıları həm içməli su ehtiyatlarına buraxılır, həm də təsərrüfatda istifadə edilə biləcək Araz çayı çirkləndirilir. Eyni zamanda, atmosferin çirklənməsi, torpaq ekosisteminin məhvi, canlılar aləminin məhv edilməsi baş verir. Məsələn Qafqaz eko-regionunda nəsli tükənməkdə olan bəbirin buradakı Amuldağ qızıl yatağının istismarı nəticəsində həyatı risk altındadır. Bu, o cümlədən, akvatik canlılar aləmi - çaylarda, göllərdə yaşayan canlıların məhvi deməkdir. Biz ekologiya sahəsində fəaliyyət göstərən qeyri-hökümət təşkilatları olaraq bu hadisəyə həssaslıqla yanaşırıq, bu qədər canlının məhv edilməsi, insanların sağlamlığına təsir göstərə biləcək bu məsələlərin baş verməsi, həmin ağır metal tullantıları ilə, sionidlə çirkləndirilmiş çaylardan istifadə edən şəxslərdə ictimai səhiyyə üzrə infeksion xəstəliklər, ürək-qan-damar xəstəlikləri, onkoloji xəstəliklərin ciddi şəkildə inkişaf etməsinə və bu inanların ölümünə gətirib çıxarır. Sübutlar və faktlar bölməsinə 12 fakt qeyd etmişik. O cümlədən, bilirik ki, Ermənistanda fəaliyyət göstərən qeyri-hökümət təşkilatlarını da bu dağ-mədən sənayesində aparılan işlər narahat edir. Burada heç bir hesabatlılıq, şəffaflıq gözlənilmədən mədən sənayesi işləri aparılır. Biz BMT-dən və bir sıra beynəlxalq qurumlardan da səsini ucaltmağı və adekvat reaksiya verməsini tələb edirik".

**Vətəndaşların Əmək Hüquqlarının Müdafiəsi Liqasının sədri Sahib Məmmədov sorğumuza cavabında bildirib:** "Ermənistan Azərbaycanın işğal altında saxladığı ərazilərində bərpası uzun illər tələb edən və bərpası mümkün olmayan ekoloji zərər vurub. Flora və fauna məhv edilib, 460 növə yaxın yabanı bitki növlərinin əksəriyyəti, o cümlədən nadir bitki növləri, nadir çinar meşələri məhv edilib. O meşələrdə yaşayan bütün fauna növləri də ya məhv olub, ya da başqa ərazilərə getmək məcburiyyətində olub. Ərazilərdə yanğınlar törədilib və bütün sürünənlər, gəmiricilər, həşəratlar, quşlar məhv edilib. Ermənilərin vəhşicəsinə istismarı nəticəsində mədən hasilatına ciddi zərər verilib, su mənbələri çirkləndirilib. İndi də Ermənistan öz ərazisindən Azərbaycan ərazisini çirkləndirir, transsərhəd, ekoloji təsirlərə məruz qoyur. Bununla bağlı Azərbaycanın qeyri-hökümət təşkilatları Ermənistanın Baş Naziri Nikol Paşinyana da müraciət etmişdi, lakin onların metalluqlar və mədənçilər adından bir qurumu ironik cavab vermişdi. Azərbaycanda mövcud olan və olmayan vətəndaş cəmiyyətinin nümayəndələri Paşinyana müraciət edib və orada göstərmişdilər ki, guya Ermənistan şəffaf ölkədir və onlar mədən hasilatında şəffaflıq təşəbbüsünə qoşulublar və Azərbaycan orada yoxdur. Halbuki Azərbaycan bu təşəbbüsün əsasını qoyan dövlətlərdən olub, 2017-ci illərdə fəal üzv olub və hazırda da təşəbbüsün prinsipləri Azərbaycanda davam etdirilir. Özü də bu məsələnin problemlə əlaqəsi yoxdur, çünki söhbət ekoloji təsirlərdən gedir. ESPO konvensiyasının tələblərinin - hansı ki, transsərhəd kontekstdə ekoloji təsirlərin qiymətləndirilməsi barədə BMT-nin konvensiyası vardır. Bu konvensiyanın tələbləri isə Ermənistan tərəfindən kobud şəkildə pozulub.



Ermənistan qonşu dövlətlərə - Azərbaycana vurduğu mənfi ekoloji təsirlərə görə cavabdehlik daşımalıdır, buna görə belə hadisələr zamanı Azərbaycanı xəbərdar etməlidir, məsləhətləşmələr aparmalıdır, ekoloji təsirləri minimuma endirməlidir, razılaşmalara getməlidir. Ermənistan tərəfi isə bunların heç birini etmir. Həm maye, həm qaz, həm də bərk tullantı şəklində Azərbaycanı çirkləndirməkdə davam edir. Buna görə də Azərbaycanın vətəndaş cəmiyyəti bu dəfə də beynəlxalq təşkilatlara müraciət edib, orada faktlar sadalanıb. Hesab edirəm ki, bu istiqamətdə həm hökumət həm də vətəndaş cəmiyyətləri ayrı-ayrılıqda səylərini davam etdirməlidir. Bizim konvensiyanın 15-ci maddəsinə görə beynəlxalq ədalət məhkəməsinə şikayət hüququmuz var. Dövlət bu hüquqdan istifadə etməlidir, vətəndaş cəmiyyəti də bu məsələni öz növbəsində fəal şəkildə - həm məlumatlandırıcı, həm bəyanatlar şəklində, həm də hesabatlar şəklində diqqətə çatdırmalıdır. Mənim təmsil etdiyim təşkilatın bir neçə hesabatlarının bəziləri BMT-nin veb-səhifəsində yerləşdirilib. Biz də bu istiqamətdə işlərimizi davam etdirəcəyik".

**"Şəfəq" Ekoturizm İctimai Birliyinin prezidenti Vamiq Babayev deyib:** "Ermənistan ekoloji norma və prinsiplərə uyğun olmayaraq həyata keçirtdiyi dağ-mədən sənayesi işləri ilə BMT-in bir sıra konvensiyalarının, o cümlədən "Transsərhəd su axarlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsi haqqında" Konvensiyasının, "Su və sağlamlıq haqqında" protokolunun, o cümlədən, BMT-nin "Avropa İqtisadi Komissiyasının Təhlükəli tullantıların transsərhəd daşınmasına və utilizasiyasına nəzarət" haqqında Bazel Konvensiyasının, "Uzunmüddətli transsərhəd havanın çirklənməsinə dair" Konvensiyanın, "Transsərhəd kontekstdə ətraf mühitə təsirin qiymətləndirilməsi üzrə Espoo Konvensiyasının tələblərini, BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri, xüsusən də "Yaxşı Səhiyyə və Rifah" üzrə 3-cü, "Təmiz Su və Sanitariya" üzrə 6-cı, "Məsuliyyətli İstehsal və İstehlak" üzrə 12-ci, "İqlim dəyişikliyinin nəticələri ilə mübarizə" üzrə 13-cü və "Yer Ekosisteminin Mühafizəsi" üzrə 15-ci məqsədlərinin əleyhinə çıxır, Biznes və İnsan Hüquqları üzrə BMT-nin Rəhbər Prinsipləri və s. kobud şəkildə pozur.



Biz Azərbaycan Respublikasında fəaliyyət göstərən 29 Qeyri-Hökumət Təşkilatı sübutlar və əsaslandırılmış faktlarla Birləşmiş Millətlər Təşkilatın müxtəlif qurumlarına, Avropa Komissiyası, Avropa Şurası, Avropa Parlamenti, Avropa Ətraf Mühit Agentliyi, Ümumdünya Vəhşi Təbiət Fondu (WWF), Qlobal Ətraf Mühit Fondu (GEF), "Friends of Earth" təşkilatı, İnsan Hüquqları Təşəbbüsü Birliyi (CHRI), "Greenpeace" təşkilatı və digər beynəlxalq təşkilatlara müraciət ünvanlayaraq Ermənistanın dağ-mədən sənayesinin fəaliyyəti nəticəsində yaranan və Yer Kürəsinin ekosisteminə qlobal və regional səviyyədə əhəmiyyətli dərəcədə təsir göstərən ekoloji fəlakətə təxirə salınmadan təcili diqqət yetirmələrini bildirmişik.

Bildiyimiz kimi Ermənistanın dağ-mədən sənayesində müəssisələrin yüksək zəhərli kimyəvi tullantıları demək olar ki, bütün transsərhəd suları çirkləndirir. Zərərli tullantı sularının Araz çayına axıdılması çayın canlılar aləminə və suvarma üçün istifadə edən təsərrüfatlara, eyni zamanda içməli su ehtiyatlarına ciddi təhlükə yaradır. Belə ekoloji təsirlər birbaşa regionda insanların sağlamlığına və onların ciddi xəstəliklərə yoluxmasına, ekosistemin pozulmasına, biomüxtəlifliyin məhvinə, havanın zəhərli tullantılarla çirklənməsinə, mal-qaranın və əkinin məhvinə gətirib çıxardır.

Məlumdur ki, Ermənistan Avropa İttifaqından Şərq Tərəfdaşlığı ölkələrində yaşıl sənayenin inkişafı üzrə "EU4Environment" proqramı çərçivəsində qrantlar alır. Görünür ki, Ermənistan aldığı maliyyə vəsaitindən regionda təbiətin məhv edilməsi və ekoloji tarazlığın pozulması ilə nəticələnən fəaliyyətlər üçün istifadə edir.

İnanırıq ki, Birləşmiş Millətlər Təşkilatı və müraciəti ünvanladığımız digər beynəlxalq qurumlar Ermənistanı mövcud ekoloji konvensiyalara əməl etməyə çağıracaq və bu ölkənin regionda yaratdığı ekoloji problemlərin həllində dəstək olmağa səy göstərəcəklər".

***Aysel Naibli***

# Ərdoğanın möhtəşəm körfəz səfəri






Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan milli iqtisadiyyatı dirçəltmək məqsədi ilə körfəz ölkələrinə səfərə çıxıb. Səfər nəticəsində Ankara 50 milyard dollarlıq investisiya müqavilələri bağlamağa ümid edir. Türkiyə rəhbərliyi daxili iqtisadi vəziyyətə görə xarici tərəfdaşlardan dəstək axtarmağa məcburdur: Ərdoğanın yenidən prezident seçilməsindən sonra ölkə böhran hadisələrlə üzləşməkdə davam edir. Əhəmiyyətli stimul yaxınlaşan bələdiyyə seçkiləridir ki, bu seçkilər zamanı hakim elita meqapolislər üzərində nəzarət uğrunda mübarizə aparmalı olacaq.

Ərdoğanın Qətər, Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirliklərinə (BƏƏ) səfər etmək planı var. Türkiyə son iki dövlətlə tam hüquqlu əlaqələri yalnız son illərdə bərpa edə bilib. İndi daha diqqətəlayiq hal odur ki, körfəzə səfər əsasən investisiya yardımının cəlb edilməsinə yönəlib. Türkiyə Prezidentinin iş qrafikinə ərəb dövlətlərinin liderləri ilə görüşlərdən əlavə, Türkiyənin Xarici İqtisadi Əlaqələr Şurasının himayəsi altında keçiriləcək biznes forumlarda iştirak da daxildir.

Səfərdə Ərdoğanı biznes elitasının 200 nümayəndəsi müşayiət edir. Xarici İqtisadi Əlaqələr Şurasının rəhbəri Nail Olpak tur başlamazdan bir müddət əvvəl Ankaranın tikinti və podrat sektorunda, o cümlədən səhiyyə, enerji, nəqliyyat, maliyyə, turizm və kənd təsərrüfatı sahələrində böyük müqavilələr imzalamağa ümid etdiyini bildirib. Öz növbəsində Türkiyənin vitse-prezidenti Cevdet Yılmaz diqqəti ona yönəldib ki, söhbət "həm iki ölkədə, həm də üçüncü ölkədə uzunmüddətli layihələrdən" gedir. "Birbaşa investisiyaların bir hissəsi dərhal, bir hissəsi isə gələcəkdə gələcək. Biz təsiredici rəqəmlər gözləyirik", o vurğulayıb. Lakin əlavə edib ki, dəqiq məlumatlar yalnız səfər başa çatdıqdan sonra ortaya çıxacaq.

Danışıqların ayrıca mövzusu Türkiyə silahlarının tədarüküdür. Türkiyənin SSB Müdafiə Sənayesi Departamentinin rəhbəri İsmayıl Dəmir bu ilin əvvəlində bildirmişdi ki, "2022-ci il üçün ixrac rəqəmlərinə gözlədiyimiz dərəcəyə çatıb və hətta onları aşıb". 2023-cü ildə 6 milyard dollar gözləyirik və rəqəmlər daha çox ola bilər". Daha sonra qeyd edib: "Təhlükəsizlik qüvvələrimizin daxili və beynəlxalq əməliyyatlarında yerli məhsullardan uğurla istifadə olunması na baxmayaraq, dost və müttəfiq ölkələrin ehtiyaclarını ödəmək üçün də mühüm tədbirlər həyata keçiririk". Ankara dəfələrlə Fars körfəzinin bu mənada mühüm alıcı olduğunu vurğulayıb.

Türkiyə iqtisadiyyatının uzun müddət ciddi dəstəyə ehtiyacı var. FactSet tərəfindən sorğulanan iqtisadçılar, daxili vəziyyətin kövrəkliyini vurğulayaraq, ölkənin hökumət kəsirinin keçən il 0,9%-dən bu il ÜDM-in 4,4%-nə yüksələ biləcəyini irəli sürürlər. "Financial Times" qeyd edir ki, həddindən artıq artan iqtisadiyyat artıq idxalın ixracı üstələyəcək cari hesab kəsiri bu ilin ilk beş ayında 37,7 milyard dollara qədər artıb və rekord həddə çatdırıb. O, həmçinin, Ərdoğanın may ayında keçirilən prezident və parlament seçkilərində verdiyi sözü tutaraq çox pul xərcləndiyinə diqqət çəkir.

Hazırda maliyyə naziri Mehmet Şimşək üzərində çalışdığı Türkiyəni davamlı iqtisadi yola qaytarmağın elementlərindən biri də maliyyə siyasətini sərtləşdirməkdir. Bir gün əvvəl ölkədə benzinin vergisi üç dəfə artırıldı. Qərb biznes nəşrlərinin yazdığına görə, bu səbəbdən iyulun 16-na keçən gecə yanacağın qiyməti təxminən 200% artıb. Maliyyə Nazirliyi qeyd edib ki, müvafiq tədbirlər sayəsində ölkə fevral ayında baş vermiş, rəsmi olaraq 104 milyard dollar ziyan vuran güclü zəlzələnin nəticələrini aradan qaldıra, pul ehtiyatlarını qoruyub saxlaya biləcək. Eyni zamanda, Bloomberg-in hesablamalarına görə, vergi təşəbbüsü inflyasiya təzyiqini artıra bilər.

Türkiyəli politoloq Kərim Hasın söhbətində izah edib ki, hakim istebliş ment milli iqtisadiyyatın sabitliyi probleminin ən azı dekorativ həllinə ehtiyac duyur. Əgər hipotetik olaraq sərmayə qoymağa hazır olan dövlətlərin bəyanatları səviyyəsində nəsə olsa belə, Ankara qane olacaq. Ərdoğan yerli seçkilər başlamazdan əvvəl dəstək almalıdır. 2019-cu ildə həm İstanbulu, həm də Ankaranı uduzan hakim partiya indi də bu şəhərləri geri almağı hədəfləyir.

Ekspertin vurğuladığı kimi, Türkiyə lideri üçün bir sıra sorğulara görə təkcə CHP-nin deyil, həm də ən populyar simalardan biri olan İstanbul bələdiyyə sədri Əkrəm İmamoğlunu, həm də ümumilikdə müxalifət düşərgəsi siyasi səhnədən uzaqlaşdırmaq vacibdir. "2019-cu ildə İstanbulu itirmək hakim partiya çətin olub və siyasi qisas aktını həyata keçirmək aktuallığını qoruyub", - Has deyib.

### Türkiyə əlli milyarda yüksəldi

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan körfəz ölkələrinə - BƏƏ, Qətər və Səudiyyə Ərəbistanına turneyə başlayır. İnvestisiyaların xaricə axması nəticəsində zərər görən iqtisadiyyatın bərpasını prioritetlər sırasına daxil edən Prezident Ərdoğan körfəz monarxiyalarına ümid edir. Ankara Türkiyə iqtisadiyyatına 50 milyard dollardan çox investisiya yatırılması barədə razılığa gəlməyi gözləyir.



## Zibil yeşiyindəki həyat

Lalə Mehralı

***Evin işıqlarını söndürdü, suyu-qazı yoxladı, balkondakı zibil torbasını əlinə aldı, qapısını bağlayıb yavaş addımlarla düşdü pillələri. Səhər hələ saat 7 idi. Çoxumuza öyrədilən şeyi edirdi - zibili səhərlər atırdı. Deyilənə görə, axşam atılan zibil evin bərəkətini də silib aparır özü ilə.***

İki gündür sərin keçirdi havalar, yağış dayanmırdı. Təmiz havanı ciyərlərinə çəkib yavaş-yavaş zibil qutularına tərəf getdi. Axşamdan dolmuş qutuları hələ təmizləməmişdi mənzil istismarı idarəsinin əməkdaşları. Yeşiklər də dolu idi, zibillər ətrafa da səpələnmişdi. Yaxınlaşıb əlindəki torbanı ehmalca zibil yeşiyinin yanına qoydu. Geri dönüb uzaqlaşmaq istəyəndə zəif inilti eşidildi. Pişik balası sandı, axı buralar həmişə pişiklə dolu olur. Heyfsləndi, evdən pişiklər üçün yemək götürmədiyi üçün özünü danladı. Ətrafa göz gəzdirdi, pişiyi görmədi. Qayıtmaq istədi, yenə səs eşitdi. Tələşlandı. Bu pişik balası deyil axı, insan səsidir.

Ağlına gələn fikir bədənini ürpərtdi, gözləri iri-iri açıldı. Dəhşətlə boyladı ətrafa. Yerdəki torbaları açdı tələsə-tələsə. Axı xəbərlərdə görmüşdü neçə dəfə, körpə ölsün deyə sellofan torbaya qoyub ağzını bərk-bərk bağlayıb atırlar qansızlar. Çirkli, tullantı dolu torbaları titrək əlləri ilə eşdi. Yoxdur heç kim, heç nə.

İnilti yenə eşidildi. Qulaq verdi. Zibil yeşiyindən gəlirdi səs. Yerdəki torbalar ayağına dolaşa-dolaşa yeşiyə tərəf getdi. İlahi! Saralmış əskiyə bükülmüş körpə vardı tullantıların içində. Heysiz, taqətsiz, tabsız, inildəyən körpə. Ağzının kənarları göyərmiş, burnu qızarmış, bədəni ağappaq ağarmış bir körpə. Titrəyən əllərini uzadıb uşağı götürdü oradan, jaketini açıb sinəsinə sıxdı, üzünə hovxurdu isti nəfəsini, isitməyə çalışdı.

Tullantıları toplayan maşının səsi gəldi, qapısından asılan kommunal idarə işçisi yerə hoppandı, yeşiklərə tərəf gəldi. Onu görüb dayandı, salamlaşdı. Hər səhər qarşılaşırlar, tanışdırlar axı. Qucağındakı uşağı fərq edincə tutuldu. Sinəsinə uşaq sıxan qocanın yaşarmış gözlərinə baxanda başa düşdü vəziyyəti: "Yenə uşaq atıblar?" deyə təəssüflə soruşdu.

Qoca titrək addımlarla yaxınlıqdakı ağacın altına doğru getdi, yerdəki daşın üstündə oturdu. Uşağı jaketinin yaxası ilə daha möhkəm bükdü, əllərini ağzına yaxınlaşdırıb yenə hovxurdu, isitməyə çalışdı. Uşağın rəngi yavaş-yavaş allanırdı, inilti kimi səs çıxarırdı. Gözləri bağlı idi, əynində nazik can köynəyi, bir də bez vardı. Büküldüyü parça əski köhnə idi, rəngi solmuşdu.

Qocanın gözlərindən süzülən yaş uşağın yanağına düşəndə körpə diksindi, iniltisi dayandı, gözlərini yavaş-yavaş açdı. İlahi! Elə bil qapqara kömür var idi gözlərinin əvəzində. Başının üstündəki adamı gördü. Səhərin işığı gözlərini qamaşdırdı, təkrar yumdu. Üzünü qocanın sinəsinə doğru çevirib ağzını açdı, dilini marçıldadıb dodaqları ilə nə isə axtardı. Başını o yan-bu yana çevirdi, axtardığını tapmadı. Dodaqlarını büzdü. Qoca kədərli-kədərli gülümsədi.

"Budur tapılan uşaq?" - səsə başını qaldıranda qabağında polis formasında gənc bir oğlan gördü. Qoca başı ilə təsdiqlədi. Başqa bir polis də aralıda, zibil yeşiklərinin yanında kommunal idarəsinin əməkdaşı ilə söhbət edirdi. Görünür, o işçi çağırıb polisi. Uzaqdan təcili yardım avtomobilinin sirenasının səsi gəlirdi. Gənc polis yaxınlaşıb körpənin çəlimsiz biləyindən tutub nəbzini dinlədi, yaşayıb-yaşamadığını yoxladı. Qoca "sağdır" - dedi.

Təcili yardım maşını yaxınlaşıb dayandı, tibb bacısı maşından düşüb qocaya tərəf gəldi, yaxınlaşıb körpəni götürmək üçün qollarını uzatdı. Qoca jaketinin yaxasını açdı. Qadın körpəni götürmək istədi, amma qocanın jaketi də uşaqla birlikdə gəldi. Uşaq balaca barmaqlarını qocanın jaketinin düyməsinə ilgəyinə keçirmişdi. Qocanın gözündə yığılan yaş ixtiyarsız yanağından aşağı süzüldü. Körpənin çöp kimi nazik barmaqlarını yavaş-yavaş açdı, ilgəkdən çıxardı. Dodağına yaxınlaşdırıb ehmalca öpdü. Tibb bacısı uşağı götürüb təcili yardım maşınına apardı.

Qoca əlini yerə dayayıb oturduğu yerdən ağır-ağır qalxdı. Polisin suallarını cavablandırıb bomboş evinə doğru yönəldi. Çiyinlərində bir dünyanın yükü, ayaqlarına ən ağır zəncirlər vurulmuş kimi...



Türkiyənin Yaxın Şərqə dönüşü həm də regional problemlərin həlli və İranın təsirinin azaldılması üçün ərəb dünyası ilə fəal yaxınlaşmanı nəzərdə tutan təhlükəsizlik strategiyasının yenidən nəzərdən keçirilməsi ilə bağlıdır.

Rəcəb Tayyib Ərdoğan bazar ertəsi start verdiyi üç günlük səfərinə BƏƏ-dən başlayıb. Daha sonra Türkiyə lideri körfəzin daha iki aparıcı monarxiyasına - Qətərə və Səudiyyə Ərəbistanına səfər edib. Avro-Atlantik müttəfiqləri ilə bir sıra barışıq addımları ilə diqqət mərkəzinə düşən NATO-nun Vilnüs sammitində ABŞ prezidenti Co Bayden və digər Qərb liderləri ilə danışdıqdan sonra Prezident Ərdoğan strateji körfəz bölgəsində Türkiyənin mövqeyini hər kəslə tanış edəcək.

Səfərdə onu müşayiət edən Türkiyə Xarici İqtisadi Əlaqələr Şurasının rəhbəri Nail Olpak Türkiyə liderinin qarşısında duran iddialı vəzifələrdən danışıb. "Prezidentimizlə birlikdə 200-dən çox iş adamından ibarət nəhəng ticarət karvanı ilə xüsusi təyyarə ilə üç ölkəyə gedirik. Biz çox məhsuldar görüşlər keçirməyi və podratçılıq, mənzil tikintisi, rəqəmsal texnologiyalar, enerji, turizm, səhiyyə, qida, kənd təsərrüfatı, nəqliyyat, maliyyə kimi sektorlarda milyardlarla dollarlıq əməkdaşlıq müqavilələrini müzakirə etməyi səbirsizliklə gözləyirik", - deyə Nail Olpak bildirib.

Nail Olpakın sözlərinə görə, Ankara "qısa müddətdə qarşılıqlı sərmayələrdə əhəmiyyətli artım" gözləyir. Bu tapşırığın həyata keçirilməsinə üç ölkənin hər birində prezident Ərdoğanın da qatılacağı biznes forumlar kömək etməlidir.

Türkiyə liderinin özü ötən gün körfəz ölkələrinə səfərindən gözləntilərindən danışıb. "Biz bu ölkələrlə əlaqələrimizi hərtərəfli gücləndirmək istəyirik. BƏƏ prezidenti Şeyx Mohammed bin Zayed Al Nahyan bu gün zəng edərək Türkiyəyə ciddi sərmayə qoymağa hazır olduğunu bildirib. Ümid edirəm ki, səfər zamanı bu məsələ ilə bağlı razılığa gələcəyik", - deyə o, jurnalistlərə bildirib.

Türkiyə rəsmiləri müqavilə və layihələri qeyd etməkdən çəkinsələr də, yerli media investisiya müqavilələrinin təxmini həcmini anlamağa çalışır. İlkin olaraq bunun 40 milyard dollara yaxın ola biləcəyi bildirilirdi. Amma "Hürriyet" qəzetinin hökumətdəki mənbələrə istinadən verdiyi məlumata görə, indi "masada 50 milyard dollardan xeyli yuxarı məbləğ var". Nəşrin məlumatına görə, tur proqramına daxil olan üç ölkənin hər biri Ankara ilə investisiya, enerji, infrastruktur, nəqliyyat və müdafiə sənayesi sahələrində əməkdaşlıq imkanlarını nəzərdən keçirir: "Çox ciddi hazırlıqlar görülüb. Turizmlə yanaşı, Türkiyəyə əhəmiyyətli resurs axınına qapı açacaq infrastruktur işləri də tamamlanıb".

Körfəz ölkələrinin varlı monarxiyaları ilə işgüzar əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı strateji stavka qismən Türkiyədə prezident Ərdoğanın rəhbərlik etdiyi yeni idarə heyətinin formalaşması ilə bağlıdır. İndi may ayında keçiriləcək prezident və parlament seçkilərindən sonra Türkiyə iqtisadiyyatının düşdüyü böhrandan çıxış yolu tapmağa çalışırlar.

İyulun əvvəlində milli valyutanın - lirənin dəyəri dollar qarşısında tarixi minimumunu yeniləyərək ilk dəfə olaraq bir dollar üçün 26 lirə psixoloji həddini qırıb. Bunun fonunda demək olar ki, hər həftə əksər türk biznesləri öz məhsul və xidmətlərinin satış qiymətlərini yuxarıya doğru indeksləşdirir (yalnız mövsümi tərəvəz və meyvələrin qiyməti azalır). Bununla yanaşı, Türkiyənin 2023-cü ilin ilk 5 ayında cari əməliyyatlar hesabının kəsiri 37,7 milyard dollara çatıb.Yəni ölkədən kapital axını ölkəyə daxil olan kapital axınını xeyli üstələyir.

İqtisadiyyatın liberallaşdırılması istiqamətində elan edilmiş kursun həyata keçirilməsində xarici iştirakın necə olması məsələsi seçkilərdən sonra da səngiməyən qızğın müzakirə mövzusudur. Belə ki, Türkiyənin Maliyyə Nazirliyi milli Rifah Fondunun tərkibinə daxil olan dövlət şirkətlərinin səhmlərini xarici kapitala satmaq niyyəti ilə bağlı mətbuatda yer alan xəbərləri etibarsız adlandırıb. "Cumhuriyet" qəzeti əcnəbilərə "Türk Hava Yolları", "Türk Telekom" və "Botaş" şirkətlərinin səhmlərini almasına icazə verilməsi planları ilə bağlı yazı dərc edib. Məqalədə deyilir ki, yeni maliyyə naziri Mehmet Şimşək komandası əsasən Fars körfəzindən iqtisadiyyata 100 milyard dollar cəlb etmək üçün Rifah Fonduna daxil olan dövlət şirkətlərinin səhmlərini satmaq imkanlarını araşdırır. "Qəzetin nəşri yalandır və onun öz qənaətlərinin bəhrəsidir. Bu cür mesajlar idarələrimizin nüfuzunu aşağı salmaq və manipulyasiya etmək məqsədi daşıyır", - Türkiyə Maliyyə Nazirliyi bu mesajı rədd edib.



Öz növbəsində Britaniyanın "Financial Times" qəzeti iqtisadi dividendlər və investisiyaların əldə edilməsinin Türkiyə hökumətinin Qərblə münasibətlərdə əsas vəzifəsinə çevrildiyini qeyd edir. Nəşrin yazdığına görə, hakimiyyət "çoxillik iqtisadi böhran zamanı ölkəni tərk etmiş xarici investorları geri qaytarmağa ümidlə çalışır", hökumət isə ümid edir ki, başqa ölkələrdən vəsait axını boş boşluqları doldurmağa kömək edəcək.

Bu fonda, iyunun sonunda "Areda Sorğu" sosioloji xidmətinin keçirdiyi ictimai rəy sorğusu göstərdi ki, iqtisadi problemlərin həllini hökumətin əsas vəzifəsi adlandıran respondentlərin yarıdan bir qədər çoxu (52,4%) bəyan edib ki, hakimiyyət orqanları bu vəzifənin öhdəsindən gəlmək qabiliyyətindədir. 47,6%-i isə yaxşılaşma gözləmədiyini deyib.

Türkiyənin Yaxın Şərqə dönüşü həm də təhlükəsizlik strategiyasının yenidən nəzərdən keçirilməsi ilə əlaqələndirilir ki, bu da hazırda regional böhranların həlli və İranın təsirinin azaldılması üçün ərəb dünyası ilə fəal yaxınlaşmanı nəzərdə tutur.

"On il ərzində bəzi regional məsələlərdə əks mövqe tutmalarına baxmayaraq, Türkiyə və Körfəz ölkələri hələ də Suriya, Yəmən, Liviya və İraqdakı qeyri-sabitliklə bağlı narahatlıqları bölüşürlər. Hazırda İran Körfəz ölkələri ilə diplomatik əlaqələri inkişaf etdirsə də, bu, regional siyasətdə yeni eranın başlanğıcını qoysa da, onun "etibarlı şəxsləri" hələ də Türkiyə və Körfəz ölkələrinin maraqlarına təhlükə yaradır. Türk politoloq Sinem Cengiz "Arab News"a şərhində belə bir vəziyyətdə Türkiyə özünün bölgədəki "əlavə adam" imicindən qurtulmağa çalışır və keçmiş regional rəqibləri ilə münasibətləri bərpa etmək üçün qapı açıb. "Ancaq bu yol güllərlə döşənmir, çünki Ankara öz regional ambisiyaları olan və öz məqsədlərini güdən digər regional oyunçularla münasibətlərdə incə xətt keçməli olacaq", - Sinem Cengiz əlavə edir.

***V.VƏLİYEV***



# Dostluq və qardaşlığa söykənən əbədi birlik!

Sarsılmaz dostluq və qardaşlığa söykənən və uğurla davam etdirilən Türkiyə-Azərbaycan əlaqələri uğurla davam edir. Qarşılıqlı etimad, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri müasir dövrümüzdə daha da möhkəmlənib. Həyata keçirilən tədbirlər böyük əhəmiyyət daşıyır və dövlətlər arasındakı dostluq-qardaşlıq münasibətləri dünya üçün nümunəyə çevrilib. Dostluq və qardaşlığa söykənən Azərbaycan Türkiyə münasibətləri bu gün daha yüksək bir mərhələdədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Böyük Millət Məclisinin (TBMM) Xarici əlaqələr komitəsinin sədri Fuat Oktayın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etməsi dövlətlərarası münasibətlərin davamlılığının daha bir təzahürüdür. Hər iki ölkə rəhbərliyi tərəfindən həyata keçirilən düzgün, məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq mövcud münasibətlər keyfiyyətcə yeni müstəviyə keçib. Azərbaycan və Türkiyənin təşəbbüsü ilə ölkələrimiz və bütövlükdə bölgə üçün önəmli layihələrin reallaşması həm də regionun ümumi tərəqqisinə, sabitliyin bərqərar olmasına təsirini göstərir. Ölkəmizin regional iqtisadi əməkdaşlığa verdiyi böyük əhəmiyyət və trans-regional infrastruktur layihələrində fəal iştirakının nəticəsi olaraq, iki ölkə arasında beynəlxalq əhəmiyyətli bir sıra regional layihələr reallaşıb. Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri və s. layihələr bu baxımdan təqdirəlayiqdir. İki ölkənin təşəbbüsü ilə həyata keçirilən digər beynəlxalq əhəmiyyətli layihə TANAP Türkiyə və Avropa Birliyi ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rola malikdir.



## ”BİR MİLLƏT, İKİ DÖVLƏT” PRİNSİPİ

Ölkələrimiz arasında əlaqələrin çox böyük məmnunluq doğurduğunu vurğulayan Fuat Oktay münasibətlərimizin ”Bir millət, iki dövlət” prinsipi əsasında inkişaf etdiyini bildirib. O, Şuşa Bəyannaməsi ilə rəsmi olaraq müttəfiqlik səviyyəsinə yüksələn Azərbaycan-Türkiyə münasibətlərinin həmin sənəddən irəli gələn məqsəd və məramlar əsasında daha da inkişaf etdirilməsinin önəmini vurğulayıb. Ölkəsində baş vermiş zəlzələ ilə əlaqədar Azərbaycanın Türkiyənin yanında olmasının önəmini qeyd edən TBMM-in komitə sədri bu dəstəyə görə təşəkkürünü ifadə edib. Türkiyə Respublikasının Kahramanmaraş vilayəti və ətraf vilayətlərdə baş vermiş dağıdıcı zəlzələnin nəticələrinin aradan qaldırılması istiqamətində Azərbaycan Respublikası qardaş Türkiyə ilə həmrəylik nümayiş etdirirdi.



Azərbaycanın 44 günlük Vətən müharibəsində Türkiyə qardaş, dost ölkə olaraq Azərbaycanın yanında oldu. Bu müharibə günləri bir daha göstərdi ki, dövlətlərarası münasibətlər həqiqətən də dostluğa, qardaşlığa söykənir. İkinci Qarabağ müharibəsi zamanı Türkiyə tərəfindən göstərilən dəstək hər kəsin sevincinə səbəb oldu. Heç kəsə sirr deyil ki, Türkiyə Ermənistan-Azərbaycan, Qarabağ münaqişəsinin həlli işində daim Azərbaycana böyük dəstək göstərdi. Ümumilikdə tarixi Zəfərimiz bu qardaşlığın dünyaya təqdimatında öz sözünü dedi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın ”Azərbaycan tək deyil” çağırışı dünyaya mesaj oldu. Sonadək mənəvi və siyasi dəstəyini göstərən qardaş Türkiyə Zəfərimizi Azərbaycan ilə birgə yaşadı. Postmünaqişə dövrünün reallıqlarının qəbul etdirilməsində və həyata keçirilməsində Türkiyə daim Azərbaycanın yanındadır. Bu gün işğaldan azad olunan torpaqlarımızda Azərbaycan və Türkiyə bayraqları dalğalanır. Azərbaycanla Türkiyənin ortaq köklərdən və dəyərlərdən güc alan dostluq və qardaşlıq münasibətləri böyük inkişaf yolu keçib. Bu gün bu münasibətlər ən yüksək zirvəyə yüksəldilib.



Qarşılıqlı etimad, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələrinin hərtərəfli inkişafı baxımından, həyata keçirilən tədbirlər, ən əsası da dövlətlər arasındakı dostluq-qardaşlıq münasibətləri artıq dünya üçün nümunəyə çevrilib. İqtisadi-ticari əlaqələrin genişlənməsi dövlətlərarası münasibətlərdə mühüm əhəmiyyət kəsb edir. Görüşdə Azərbaycan Prezidenti İlham Əliyev Türkiyədəki seçkilərdən sonra Rəcəb Tayyib Ərdoğanın Azərbaycana dövlət səfərinin önəmini yüksək qiymətləndirib. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın son seçkilərdən sonra Azərbaycana səfər etməsi, önəm verməsi onu deməyə əsas yaradır ki, iki ölkənin qardaşlıq prinsipinə söykənən müttəfiqlik münasibətləri bundan sonra da davam edəcək. Prezident İlham Əliyev bu səfər əsnasında da ikitərəfli əlaqələrin inkişafı ilə bağlı geniş müzakirələrin aparıldığını vurğulayıb. Azərbaycan ilə Türkiyə arasında hərbi, hərbi-texniki sahədə əməkdaşlığın inkişafına toxunan dövlətimizin başçısı Prezident Rəcəb Tayyib Ərdoğanın Bakıda olarkən Hərbi Hava Qüvvələrinin yeni Mərkəzi Komanda Məntəqəsinin açılışında iştirakının ölkələrimiz arasında hərbi sahədə əməkdaşlığın inkişafının növbəti nümunəsi olduğunu diqqətə çatdırıb. Əlbəttə ki, Hərbi Hava Qüvvələrinin yeni Mərkəzi Komanda Məntəqəsinin açılışında iştirak etməsi də hərbi sahədə güclənən əməkdaşlığımızın göstəricisidir.

## AZƏRBAYCAN-TÜRKİYƏ MÜNASİBƏTLƏRİNDƏ YENİ BİR DÖVRÜN BAŞLANĞICI

Şuşa Bəyannaməsi ilə müttəfiqlik prinsipi əsasında ölkələrimiz arasında əlaqələrin inkişaf etdiyini diqqətə çatdıran Azərbaycan Prezidenti Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın, həmçinin bu əməkdaşlığın parlament səviyyəsində daha da inkişaf etdirilməsinin, parlamentlərin xarici əlaqələr komitələrinin Türk Dövlətləri Təşkilatı çərçivəsində fəaliyyətinin daha da genişləndirilməsinin vacibliyini vurğulayıb. ”Bir millət, iki dövlət”, - deyən Ulu Öndər Heydər Əliyevin dövlətlərarası yaratdığı qardaşlıq münasibətləri bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən çox yüksək səviyyədə, uğurla davam etdirilir və müttəfiqlik səviyyəsinə yüksəldilib. 2021-ci il iyunun 15-də ”Azərbaycan Respublikası ilə Türkiyə Cumhuriyyəti arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi”nin imzalanması Azərbaycan-Türkiyə münasibətlərində yeni bir dövrün başlanğıcını qoymuş oldu. Qardaş dövlətlərin Şuşa Bəyannaməsini imzalamaları müttəfiqlik münasibətlərinin göstəricisidir. Şuşa Bəyannaməsi Qars müqaviləsinə, Dostluq və Əməkdaşlıq haqqında Müqaviləyə, Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım haqqında müqaviləyə əsaslanaraq, Azərbaycan-Türkiyə münasibətlərinə yeni mənəvi-siyasi və hərbi-strateji məzmun verib. Bəyannamədə beynəlxalq müstəvidə birgə əməkdaşlıq, siyasi münasibətlər, iqtisadi-ticari əlaqələr, mədəniyyət, təhsil, idman, gənclər siyasəti, enerji təhlükəsizliyi kimi məsələlər öz əksini tapıb. Tarixi, strateji önəmi, hüquqi, hərbi və siyasi baxımdan xüsusilə böyük əhəmiyyətə malik olan Şuşa Bəyannaməsi Azərbaycan-Türkiyə qardaşlığının sarsılmazlığını bir daha nümayiş etdirir. Azərbaycan və Türkiyə regionda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eləcə də region dövlətləri arasında münasibətlərin normallaşdırılması istiqamətində səylərini davam etdirilməsi baxımından yeni imkanlar açır. Şuşa Bəyannaməsi iki ölkə arasında imzalanmış olsa da, bölgə üçün də böyük əhəmiyyət daşıyır.

Görüşdə, həmçinin Orta Dəhliz, enerji sahələrində əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparılıb, son dövrlərdə Türkiyə ilə Azərbaycan arasında Preferensial Ticarət Sazişindən irəli gələrək iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsi və ticarət dövriyyəsinin 6 milyard dollara çatması müsbət məqamlar kimi qeyd olunub. Göründüyü kimi, qarşılıqlı etimad, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri müasir dövrümüzdə daha da möhkəmlənir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# İlin sonuna qədər Zabux və Sus kəndlərinə keçmiş məcburi köçkünlər qayıdacaqlar

Dövlətimiz işğaldan azad olunan bütün ərazilərdə bərpa-quruculuq işləri həyata keçirir. Müharibənin başa çatdığı 2 ildən çox müddət ərzində Azərbaycan ermənilərin 30 ildə minaladıqları əraziləri minalardan təmizləyir və 10 min kv km ərazidə geniş yenidənqurma və bərpa işləri aparılır. Həyata keçirilən bütün layihələr Böyük Qayıdışa dair I Dövlət Proqramında nəzərdə tutulduğu kimi yüksək səviyyədə icra edilib. Azərbaycan dövlətinin müəyyənləşdirdiyi bərpa və quruculuq missiyasının uğurla yerinə yetirilməsi üçün bütün imkanlar səfərbər olunub. Belə ki, ötən müddətdə işğaldan azad olunmuş ərazilərimizdə insanların rahat və firavan yaşayışının təməlinin qoyulması üçün mühüm infrastruktur layihələri icra olunub. Sevindirici haldır ki, Azərbaycan bütün bu işləri təkbaşına, heç bir ölkədən və beynəlxalq maliyyə qurumundan yardım istəmədən, öz gücü ilə həyata keçirir. Yeri gəlmişkən, Qarabağ və Şərqi Zəngəzur regionunun bərpa və yenidənqurma işləri üçün dövlət büdcəsindən 2021-ci ildə 2,2 milyard, 2022-ci ildə 2,7 milyard manat vəsait ayrılıb. Bu ilin büdcəsində isə işğaldan azad olunmuş ərazilərin bərpası üçün ötən illə müqayisədə 13 faiz çox, yəni 3 milyard manat nəzərdə tutulub. Artıq həmin vəsaitin 60 faizi istifadə olunub. Bu da Qarabağ və Şərqi Zəngəzurun bərpası və yenidən qurulması ilə bağlı işlərin sürətlə həyata keçirilməsinə dəlalət edir.



Bununla belə, Azərbaycanın maliyyə imkanlarının artması ilə əlaqədar olaraq dövlət büdcəsinə yenidən baxılaraq onun xərclər hissəsi 3 milyard manat artırılıb. Həmin vəsaitin 1,8 milyard manatı isə Qarabağın və Şərqi Zəngəzurun bərpasına ayrılıb. Bir sözlə, illərlə əsl sahibinə həsrət qalan torpaqlarımızda infrastruktur yenilənir, dədə-baba yurdlarına qayıdacaq soydaşlarımızın rahat yaşaması, işlə təmin olunması, onların təhlükəsizliyi üçün hər cür şərait yaradılır. Erməni vandalizminin qurbanı olan tarixi və dini abidələrimizin, məscidlərimizin bərpası istiqamətində də işlər uğurla həyata keçirilir. Həmin abidələrin yenidən qurulub ərsəyə gəlməsində Heydər Əliyev Fondu yaxından iştirak edir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Fondun reallaşdırdığı layihələrin əhatə dairəsi olduqca genişdir.



İyulun 11-də Prezident İlham Əliyev 2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədəki çıxışında deyib: "Əlbəttə ki, biz bu sahədə görüləcək işləri daim diqqət mərkəzində saxlamalıyıq. Deyə bilərəm ki, mənim gündəlik fəaliyyətimdə bu məsələ bu gün birinci yerdə dayanan məsələdir və biz daim bütün işlərə nəzarət edirik. Hökumət üzvləri və digər rəsmi şəxslər müntəzəm olaraq azad edilmiş bölgələrə ezam olunurlar. Biz hər şeyi planlı şəkildə edirik, orada ən yüksək standartlar tətbiq edilir və edilməlidir. Bütövlükdə, nəzərdə tutulmuş investisiya proqramı əsasında bu ilin sonuna qədər Qarabağ və Şərqi Zəngəzura biz təqribən 12 milyard manata qədər vəsaitin xərclənməsini təmin edəcəyik. Onu da bildirməliyəm ki, görülən bütün işlər Azərbaycan hesabına həyata keçirilir".

Xatırladaq ki, Böyük Qayıdışa dair I Dövlət Proqramının icrasının birinci mərhələsində işğaldan azad olunmuş ərazilərdə 100 yaşayış məntəqəsinin yenidən qurulması nəzərdə tutulur. Qarabağ və Şərqi Zəngəzurda məskunlaşmanın təmin olunmasını xüsusi nəzarətdə saxlayan Prezident İlham Əliyev ötən müddətdə 8 şəhər, 22 qəsəbə və kəndin təməlini qoyub. Məlum müşavirədəki çıxışında bu məqama xüsusi toxunan dövlət başçısının qeyd etdiyi kimi, artıq bu il Talış kəndinə və Laçın şəhərinə keçmiş məcburi köçkünlərin qayıtması təmin olunub. İlin sonuna qədər isə Laçın şəhərinin Zabux və Sus kəndlərinə də keçmiş məcburi köçkünlər qayıdacaqlar. Qayıdış proqramının ardıcıllıqla icra olunduğunu vurğulayan ölkə rəhbəri ilin sonuna qədər bir şəhər və dörd kənddə vətəndaşların öz dədə-baba torpaqlarında məskunlaşacaqlarını bildirib. Ölkə Prezidenti Laçın şəhərinin timsalında görülən işləri, cəmi səkkiz ay ərzində şəhərin böyük hissəsinin tamamilə bərpa olunduğunu təqdirəlayiq hal adlandırıb. Artıq Laçında 700-dən çox ailə üçün həm fərdi, həm çoxmənzilli evlər inşa olunduğunu bildirən dövlət başçısı şəhərin gələcək inkişaf planı ilə bağlı əlavə addımlar atılacağını diqqətə çatdırıb.





Onu da qeyd edək ki, işğalçıdan təmizlənən torpaqların dirçəlməsi, bu ərazilərə yeni nəfəs verilməsi strategiyasında sənayeləşmə siyasəti xüsusi yer tutur. Başqa sözlə, Qarabağ və Şərqi Zəngəzurda sənaye parklarının qurulması və bu müəssisələrə investisiya cəlb olunması bölgənin resurslarından, həmçinin iqtisadi imkanlarından yararlanmaqla adları çəkilən iqtisadi rayonların ölkə iqtisadiyyatına səmərəli reinteqrasiyasına əlavə stimul yaradır.

Yeri gəlmişkən, bu ərazilərdə sənayeləşmə prosesinin mərhələli şəkildə aparılacağı planlaşdırılıb. Abadlıq və quruculuq işlərinin həyata keçirilməsi üçün ilkin mərhələdə tikinti şirkətləri prosesə qoşulub. Əhalinin tezliklə işğaldan azad edilən yaşayış sahələrinə qayıdacağı nəzərə alınaraq, bu ərazilərdə məskunlaşan keçmiş məcburi köçkünlərin məşğulluğu, onların ərzağa olan tələbatının ödənilməsi xüsusi diqqətdə saxlanılıb. Bu baxımdan, növbəti mərhələdə kənd təsərrüfatı məhsullarının emalı, yüngül və qida sənayesinin formalaşdırılması prosesinin həyata keçiriləcəyi diqqətdə saxlanılıb.

Laçın Aqro və Sənaye Parkının yaradılması da əsasən bu məqsədə xidmət edir. Parkda ümumilikdə 46 müəssisənin fəaliyyət göstərəcəyi, onların da 80 faizinin bu il yayın sonunadək işə başlayacağı nəzərdə tutulur. Burada həm iri, həm də kiçik mebel fabrikləri, yüngül materiallardan ev və digər konstruksiyalar hazırlayan zavod, balıq təsərrüfatı, yeyinti və yüngül sənaye, ekoloji cəhətdən təmiz emal müəssisələri, eyni zamanda, kiçikbuynuzlu heyvanlar üzrə elmi-təcrübə mərkəzinin yaradılması planlaşdırılır. Bu ayın sonunadək artıq keramik məhsullar fabrikinin də işə düşəcəyi gözlənilir. Bundan başqa, kinostudiyanın, tekstil, ayaqqabı fabriklərinin açılması, müxtəlif istiqamətlər üzrə qısamüddətli kursların təşkili nəzərdə tutulur.

Göründüyü kimi, 44 günlük Vətən müharibəsi bitən gündən işğaldan azad edilən ərazilərimizin yenidən qurulması həmin torpaqlarda ən müasir infrastrukturun yaradılması, mədəni-tarixi abidələrin bərpası və layiqli yaşayış şəraitinin reallaşdırılması istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilməkdədir. Bu çərçivədə icra olunan layihələr isə həmin yerlərin qısa müddət ərzində sülh və əməkdaşlıq bölgəsinə çevrilməsini və iqtisadi inkişafını hədəfə alıb.

**Nigar Orucova**

# Çap mediası rəqəmsal medianın kölgəsində qalır?

*"Çiy" material yayımlayan saytlar informasiya bazarında at oynadır*

**Ünsiyyətin rəqəmsallaşması və onlayn media platformalarının yaranması jurnalistikanın və jurnalistlərin iş prosesində transformasiyaya səbəb oldu. Çap mediasında reklam və satış gəlirləri azalmağa başladı, tiraj düşdü. Təəssüflə qeyd edim ki, çap olunan KİV-lər tədricən yayım ömrünü dayandırır, gündəlik dərc olunan qəzet və jurnallar həftəlik rejimə keçirlər. Çap mediasında işləyən jurnalistlər var gücü ilə buna mane olmağa çalışırlar. Azərbaycan mediasının ən nəhəng imzaları da bu mübarizəyə dəstək verir, ənənəvi qəzetçiliyin ömrünü uzatmağa çalışırlar. Lakin zaman özü ilə nələr gətirəcək, hələ ki, hamımız üçün qaranlıqdır.**














## Yalan, böhtan yazan saytların fonunda peşəkar jurnalistika

Rəqəmsallaşma və internet jurnalistikası ənənəvi jurnalistika peşəsində problem yaradan ən mühüm amildir. Xəbər dəyərləri, peşəkar etika, xəbərin hazırlanma prosesi, iş şəraiti və xəbərin idarə edilməsi kimi bir çox məsələ rəqəmsallaşma ilə don dəyişdirərək transformasiyaya məruz qaldı. Bu transformasiya çap mediasında çalışan peşəkar jurnalistlər üçün təhlükə yaratdı, bu öz yerində, lakin eyni zamanda şər, böhtan, yalan, əslsiz xəbərlərin də gündəmə ayaq açmasına səbəb oldu. Peşəkar informasiya agentlikləri, ciddi xəbər yayımlayan saytlar istisna olmaqla bir çox sayt və portal yalançı şou və əsilsiz xəbər tələsinə düşdü.

Əslində, rəqəmsal texnologiyalar, jurnalisti lazımsız hala salmaq potensialına malikdir, necə ki bunun üzərində yavaş-yavaş işləyir. Üstəlik, süni intellekt həyatımıza girdikdən sonra olacaqları təsəvvür edin. İnternet bu gün özünəməxsus jurnalistika növünü yaradıb. Bu internetdə xəbər məzmununu toplayan və yayan qisimdir. Araşdırmadan, əslini dəqiqləşdirmədən, qarşı tərəfə söz haqqı tanımadan kor-koranə yayılan məlumatlar jurnalistika məhsulu kimi oxucuya sırınır.

Bu gün təkcə ofislərdən, redaksiyalardan deyil, internet bağlantısı olan istənilən yerdən də xəbər yazıla və paylaşıla bilər. Bu üstünlük xəbər istehsal prosesinin müstəqil olmasına imkan verir, lakin nəzarət mexanizmi itir. Üstəlik, "azad rəqabət" adı altında jurnalistika prinsiplərinə, təməl qaydalara əməl etməyən sayt və portallar meydanda at oynadır. Rəqəmsallaşmanın gətirdiyi bəzi yeniliklər jurnalistika peşəsinə ciddi təsir göstərir, hətta zamanla təməl prinsipləri, iş əxlaqını dəyişdirir.

Dəyişən amillərdən biri də sürətli və bütün rəqiblərdən əvvəl xəbər verməkdir. Bu da öz növbəsində tələskənliyə və "çiy" materialın yayılmasına səbəb olur. Ən tez yayımlamaq istəyi materialın ənənəvi jurnalistikada olduğu kimi dəqiqliklə işlənməməsinə və bir çox hallarda yalan və əsli olmayan məlumatı dərc etməyə səbəb olur.

## Vətəndaş jurnalistikası və yaratdığı təhlükə

Rəqəmsallaşma və internetin həyatımıza nüfuz etməsi ilə ortaya çıxan "vətəndaş jurnalistikası" anlayışı mətbuata özü ilə bərabər bir çox dəyişiklik və yenilik də gətirdi. Məsələn, ənənəvi jurnalistlərə olan ehtiyac azaldı, indi ən sadə bir vətəndaş da reportyor, jurnalist fəaliyyəti göstərir və onlarla işləmək saytlara, portallara daha çox sərf edir. Bölgələrdə peşəkar journalist postuna xərc çəkilməsi lazımsız hesab edilir, ərazidən bir həvəskar vətəndaş tapılır, əlinə bir mikrafon, yaxasına bior vəsiqə və məsələ həll olunur. Bəzən çox cüzi maaşa işləyirlər, bir çox halda onlara maaş da ödənilmir, həvəskar kimi əməkdaşlıq edirlər, işlədiyi media orqanının nüfuzundan istifadə edib bölgədə imtiyazlardan istifadə edir. Bu adamlar beyin məhsulu yaratmır, sadəcə, daşıyıcı rolunu icra edirlər, buna görə də daha çox maaş tələb etmirlər. Gəncdirlər, dinamikdirlər, amma təcrübəsizdirlər, onları idarə etmək asandır.

Peşəkar bir jurnalist istismar edilməyə əsla razı olmur, əslsiz xəbər yazmır, dəqiqləşdirmədən məlumat ötürmür və peşəsini hər şeydən yuxarıda tutur. Onun 1 həftəyə araşdırdığı məsələni 1 gündə araşdıracağını iddia edən yerli vətəndaş təbii olaraq media partonunun diqqətini çəkir. İndi bir çox media patronunu əsli olan, səhih xəbər maraqlandırmır, axı rezonans doğuran yalan məlumat saytın İP sayını daha çox artıra bilir. Bu da, öz növbəsində, daha çox reklam almaq və daha rahat gəlir əldə etmək deməkdir.

Razıyam, sosial şəbəkələr sadə insanların öz fikirlərini geniş kütlə ilə bölüşə bildiyi mühitə çevrilib, insanlar bu yolla problemlərinin həllinə nail olurlar. Lakin internetin verdiyi bu imkan "vətəndaş jurnalistikası" adlandırılaraq peşəkar jurnalistin fəaliyyətinə mane olur. Vətəndaş jurnalistikası sosial şəbəkələrdə olduğu müddətdə problem yoxdur, lakin özünü peşəkar adlandıran KİV bu axının ənənəvi və peşəkar jurnalistikanı sıxışdırmasına imkan yaratmamalıdırlar. Vətəndaş yenə çəkə, göndərə, problemlər haqqında məlumat verə bilər, lakin onun qeyri-peşəkar məhsulu peşkar saytlarda prioritet hesab edilməməlidir, çiy material birbaşa sayta, portala yerləşdirilməməlidir. Çox şahidi oluruq, bu cür materiallar daha sonra saytdan silinir, təkzib yayımlanır. Lakin bu, aralıqda saytın baxış sayı yüksəlir, reklam gəlirləri artır. Təəssüflə deyim ki, gəlirini bu yolla çoxaldan sayt və portalların iş prinsipi məhz budur - əvvəl yayımlamaq, baxış sayını yüksəltmək, əsilsiz olduğu anlaşılandan sonra silmək.

## Təkzib edəcəyi məlumatı dərc edərsə...

Rəqəmsal mediada həvəskar jurnalistlər və ya adi insanlar ani reflekslərlə xəbər yaradırlar. Yolda gördükləri, qarşılaşdıqları, şahid olduqları hadisələri xəbər kimi istehsal edəndə heç bir jurnalistika ölçülərinə əməl etmirlər, heç bir meyar nəzərə alınmır. Bu təbiidir, çünki onlar jurnalist deyillər. Onların xəbər hazırlamaq bacarığı çox vaxt sadəcə informasiya ötürmək xarakteri daşıyır. Bu prosesdə informasiya çirklənə, yön dəyişdirə, əslsiz ola bilər və hazırlayan həvəskar vətəndaş bunların fərqində olmur.

Rəqəmsal jurnalistikada plagiatlıqla yanaşı, xəbərin dəqiqliyi də problem kimi qalır. Ənənəvi çap jurnalistikasının, habelə ciddi informasiya saytlarının ən mühüm vəzifələrindən biri xəbərlərin əslinin olub-olmamasına əmin olmaqdır. Xəbəri mənbədən dəqiqləşdirmək mütləqdir və vacibdir. Jurnalistin əldə etdiyi xəbəri dərhal yazması peşəkar prinsiplərə ziddir. Çünki ertəsi gün o xəbər təkzib oluna bilər və media orqanı üzr istəməli, bəzi hallarda məhkəmədə cavab verməli olur. Yayımına, peşkarlığına, imzalarına güvənən heç bir mətbu orqan, peşəkar sayt təkzib edəcəyi məlumatı yaymamalıdır.

***Lalə Mehralı***

# "Heydər Əliyevin həyatının 100 anı" kitabının təqdimatı keçirilib

Fransanın paytaxtı Paris şəhərində müstəqil Azərbaycan dövlətinin qurucusu, dahi siyasətçi və qüdrətli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar "Ulu Öndər Heydər Əliyevin irsinə həsr olunmuş kitabların nəşri" beynəlxalq layihəsi çərçivəsində Azərbaycan və ingilis dillərində işıq üzü görmüş "Heydər Əliyev həyatının 100 anı" kitabının təqdimat mərasimi keçirilib.

SİA xəbər verir ki, Azərbaycanın Fransadakı səfirliyinin Mədəniyyət Mərkəzində keçirilən təqdimat mərasimi səfir Leyla Abdullayevanın, Fransa-Azərbaycan Dialoqu Assosiasiyasının rəhbəri Aytən Muradovanın və kitabın müəllifi, "Azərbaycanım" beynəlxalq jurnalının baş redaktoru, Beynəlxalq Elmlər Akademiyasının müxbir üzvü Emil Nəsirlinin dəstəyi ilə təşkil olunub.

Mərasimdə çıxış edən Fransa-Azərbaycan Dialoqu Assosiasiyasının rəhbəri Aytən Muradova Ulu Öndərin mənalı və şərəfli ömür yolunun parlaq səhifələrinin xalqımızın yaxın tarixi keçmişi ilə ayrılmaz vəhdət təşkil etməsindən danışıb. O, Ulu Öndər Heydər Əliyevin fenomeninin ən mühüm göstəricilərindən biri də azərbaycançılıq məfkurəsinin, milli ruhun hədsiz yüksəlməsi, milli özünüdərkin inkişafı, xalqın tarixi yaddaşının özünə qaytarılması kimi fundamental prinsiplər əsasında dövlətçilik arzularının və hisslərinin güclənməsi, real siyasi amilə çevrilməsindən danışıb.

Sonra çıxış edən "Heydər Əliyevin həyatının 100 anı" kitabının müəllifi, "Azərbaycanım" beynəlxalq jurnalının baş redaktoru, Beynəlxalq Elmlər Akademiyasının müxbir üzvü Emil Nəsirli tədbirin Parisdə keçirilməsinə xüsusi dəstək göstərən səfir Leyla Abdullayevaya və Aytən Muradovaya minnətdarlığını bildirib.

Emil Nəsirli qeyd edib ki, Heydər Əliyev qədər öz xalqını, onun tarixini, mədəniyyətini və dilini sevən ikinci bir şəxsiyyət tapmaq çox çətindir. Heydər Əliyevin uğurlu xarici siyasət fəaliyyətinin məqamlarından söz açan E.Nəsirli vurğulayıb ki, Azərbaycanın nüfuzlu beynəlxalq və regional təşkilatlarla münasibətlərinin yaradılması və daha yüksək səviyyəyə qaldırması ilə diqqəti cəlb edib. Beynəlxalq təşkilatlara üzv olmaq, onlarla səmərəli iş qurmaq Azərbaycanın problemlərini, Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq istiqamətində Heydər Əliyevin rolu danılmazdır. Məhz buna görə də Ulu Öndər Heydər Əliyevin səyi nəticəsində həmin dövrdən Azərbaycan Avropa İttifaqı və Avropa dövlətləri, o cümlədən Avropanın lider dövləti olan Fransa ilə ikitərəfli əlaqələrin inkişafında sıx əməkdaşlığa nail olmuş və bu gün əməkdaşlığımız yüksələn xətlə inkişaf edir. Dünyanın nüfuzlu beynəlxalq təşkilatlarında fəal təmsilçilik açıq və demokratik cəmiyyət quruculuğu yolu ilə sürətlə addımlayan müstəqil Azərbaycan dövlətinin xarici siyasət strategiyasında bu gün də aparıcı istiqamətlərdən birini təşkil edir. Bu təşkilatlarla siyasi, iqtisadi, mədəni, humanitar, hərbi və digər sahələri əhatə edən əməkdaşlıq əlaqələri çoxşaxəli xarakter daşımaqla Azərbaycanın milli maraqlarının daha dolğun şəkildə ifadə olunmasına, beynəlxalq aləmdə aparıcı rol oynayan Avropa dövlətləri ilə qarşılıqlı münasibətlərin möhkəmləndirilməsinə yönəlib.





Baş redaktor onu da bildirib ki, Azərbaycanda 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi cəmiyyətin bütün təbəqələrində hədsiz sevinclə qarşılanır, dünyamiqyaslı siyasət və dövlət xadiminin dövlətçilik ənənələrimizin dirçəldilməsi, yaşadılması və bərpa edilməsi sahəsində misilsiz xidmətlərinə, çağdaş tariximizdə tutduğu müstəsna mövqeyinə xalqımızın və dövlətimizin qədirbilən münasibətinin parlaq təcəssümü kimi qiymətləndirilir. "Ulu Öndərin dövlətimiz, xalqımız qarşısındakı xidmətləri hər an, hər gün gözümüz önündədir. Bu qərar bir daha dahi şəxsiyyətin fəaliyyətinin ayrı-ayrı istiqamətlərinin dərindən araşdırılmasına, zəngin irsinin əhatəli təbliğinə geniş imkanlar yaradacaq", - deyə Emil Nəsirli vurğulayıb. Daha sonra müəllifi olduğu "Ulu Öndər Heydər Əliyevin irsinə həsr olunmuş kitabların nəşri" beynəlxalq layihəsi çərçivəsində Azərbaycan və ingilis dillərində işıq üzü görmüş "Heydər Əliyev həyatının 100 anı" kitabı haqqında geniş məlumat verən Emil Nəsirli vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyevin fəaliyyəti, Azərbaycan xalqının milli sərvəti, xəzinəsidir, bundan sonra da neçə-neçə nəsillər bu məktəbdən bəhrələnərək Azərbaycanın davamlı inkişafına öz töhfəsini verəcəkdir. "Fəxarət hissi ilə qeyd etmək lazımdır ki, ulu öndər Heydər Əliyev hər bir azərbaycanlının qəlbində özünə bir abidə ucaldıb və bu abidənin adı müasir müstəqil Azərbaycan dövlətidir", - deyə o qeyd edib.

Sonda diqqətə çatdırılıb ki, bu gün hamımız Ulu Öndər Heydər Əliyevin amallarına sadiq qalaraq Prezident İlham Əliyevin ətrafında sıx birləşməli, müstəqilliyimizi və qələbəmizi daha da möhkəmləndirməliyik. Ulu Öndərin ən böyük arzusu Azərbaycan xalqını müstəqil, qalib, torpaqlarımızı işğaldan azad edilmiş görmək idi. Azərbaycan xalqı Ulu Öndərin dövlətimizin müstəqilliyi və suverenliyi uğrunda fədakarlığını heç zaman unutmayacaq.

Təqdimat mərasimində Azərbaycanın Fransadakı səfirinin müşaviri Ayaz Qocayev də çıxış edib.

Sonra ictimai-siyasi xadimlərin, yerli və beynəlxalq qurumların nümayəndələrinin, KİV əməkdaşlarının və digər şəxslərin qatıldıqları tədbirdə mərasim iştirakçılarının Ulu Öndər Heydər Əliyevin irsi ilə bağlı suallarını cavablandıran Emil Nəsirli "Heydər Əliyev həyatının 100 anı" kitabını iştirakçılara hədiyyə edib. Sonda kitabla bağlı videoslayd təqdim olunub.

# Mina təmizləmə işləri nə yerdədir?

**"Ermənistan tərəfi 30 il ərzində işğal etdikləri ərazilərdə 1 milyondan çox mina basdırıb. Bu tank əleyhinə, piyada əleyhinə minaları çox pərakəndə şəkildə, harada gəldi basdırıblar. İndiyə kimi ərazinin 18%-dən bir qədər artığı isə təmizlənib, 61 mindən çox minalar tapılaraq zərərsizləşdirilib". Bu sözləri Milli Məclisin deputatı Tahir Kərimli SİA-ya işğaldan azad olunmuş ərazilərdə mina təmizləmə prosesləri barədə danışarkən deyib.**

Millət vəkili qeyd edib: "Erməni vandallarının əməlləri nəticəsində ümumiyyətlə, 1991-ci ildən indiyə kimi 300-dən çox azərbaycanlı həlak olub, o cümlədən, İkinci Qarabağ Müharibəsindən də sonra 300 nəfərə yaxın insan minadan yaralanıb, onların 51 nəfəri həlak olub. Hazırda FHN-nin xüsusi təyinatlı alayı ciddi işlər aparır, təmizləmə işlərini davam etdirir. O cümlədən, xaricdən qiymətli maşınlar və robotlar alınır. Bu robotlar bir sutka ərzində 1500 kvadratmetr ərazini təmizləyə bilir və bu, böyük işdir. İstifadə edilən robotlar partlayışlara dözümlüdür və robotların yalnız qabaq hissələri zədələnir. Çox təəssüf ki, Avropa Parlamenti bir dəfə də olsun bu məsələni gündəmə gətirməyib, Ermənistanın basdırdığı minaların zərərsizləşdirilməsi məsələsinə kömək etməyib. Konversiyaları pozmağı, yəni xristian təəssübkeşliyi ortadadır. ABŞ-nin yeganə bir şirkəti bu işdə iştirak etməyi vəd edib. Onlarda yüksək texnologiya var və bu texnologiya bizim üçün əhəmiyyət kəsb edə bilər. Lakin qeyd edim ki, Azərbaycan Respublikasının Prezidenti özü qeyd edib ki, bütün bu 1 milyon minanı təmizləməyə bizə 30 il, 25 milyard dollar pul lazımdır. Görün, nə qədər vəsait və vaxt sərf edilməlidir. Ermənilərin bu vəhşiliyinə isə Qərb göz yumur. Fikrimcə, Azərbaycan xristian, Ermənistan isə müsəlman olsaydı bu zaman dünya ermənilərin Azərbaycana etdiyi bu zülmlərin 1%-nə də dözməzdi. Ermənilər havadarlarıyla bu əməlləri edib, o cümlədən, torpaqlarımızı da minalarla çirkləndiriblər. Təəssüf edirəm ki, Rusiya sülh məramlılarının olduğu ərazidə də bu vəziyyət mövcuddur. Hazırda ən çox təmizləmə işləri kəndlərdə, qəsəbələrdə, su kanallarının kənarlarında, su qovşaqlarının yanlarında - ehtimal edilən bütün yerlərdə ciddi şəkildə gedir".





AÇIQLAMA



T. Kərimli minaların əhali üçün təhlükəsindən bəhs edib və insanlara göstərilən təlimatlara uymağı məsləhət görüb: "Bu vəziyyət əlbəttə ki, əhaliyə yenə də təhlükə törədir. Ciddi şəkildə göstərilən təlimatlara riayyət etmək lazımdır. Ağdam, Füzuli kimi böyük şəhərlərdə, yol kənarlarında, qəsəbə və kəndlərdə, tarlalarda, su anbarlarının kənarlarında - hər yerdə xəbərdarlıq nişanları var. Buna görə bu xəbərdarlıqlara ciddi şəkildə riayət etmək lazımdır. Məhz bu qədər təhlükə olduğuna görə də, əhalini hələ də tam şəkildə işğaldan azad edilmiş ərazilərə köçürə bilmirik. Ümumiyyətlə, Azərbaycan əhalisini dövlətin standartlarına və xəbərdarlıqlarına riayət etməyi məsləhət bilirik".

**Aysel Naibli**

# Qrant dəllalı Tofiq Yaqublu əxlaqi-mənəvi sarsıntılar girdabında

**“Bu gün Fransanın milli bayramı-Bastiliyanın alınması günüdür. Tofiq Yaqublu bəylə birlikdə bu münasibətlə Fransa səfirliyinin düzənlədiyi tədbirə gedib Fransa polisinin Söyüdlüdə, pardon, Parisdə törətdiyi zorakılığa görə etirazımızı bildirdik. Fransanın ağbirçək analarının gözünə bibər qazı sıxan Paris jandarmeriyasının əməkdaşlarına ar olsun”.**



Bu fikirlər ölkəmizin siyasi palitrasındakı partiyaları budaq-budaq gəzən, nəhayət, radikal müxalifətin lokomotivlərindən olan, vaxtilə xarici anti-Azərbaycan dairələrin sifarişi ilə yaradılan ”Milli Şura”nın Koordinasiya Mərkəzində lövbər salan, pozucu, inkarçı dəstənin Ledi Qaqası kimi ad qazanan Gültəkin Hacıbəyliyə məxsusdur. Yanlış oxumadınız. Məhz Ledi Qaqası kimi. Çünki Gültəkin Hacıbəyli də L.Qaqa kimi ”imicində” yenidən ixtiraları və əyləncə sənayesində çoxyönlü olması ilə tanınır. Yuxarıdakı fikirləri ilə G.Hacıbəyli yenə də, necə deyərlər, siyasət sənayesində əylənmək istəyib. Siyasəti yüngül əyləncə kimi dərk edən xanım ”siyasətçi” özü də bilərəkdən və ya bilməyərəkdən bu dəfə ”əqidədaşı”, ”Milli Şura”nın Koordinasiya Mərkəzinin üzvü Tofiq Yaqublu ilə əylənmək fikrinə düşüb.

İndi isə gələk T.Yaqubluya. Radikal müxalifətin ön sıralarında dayanan bu şəxsin adı gələndə dərhal hər kəsin yadına xəyanətkarlıq və satqınlıq düşür. Belə ki, bir neçə il bundan əvvəl Müsavat Partiyasının qurultayında qurumun başqanlığını ələ keçirə bilməyən T.Yaqublu, necə deyərlər, siyasi libasını dəyişərək birdən-birə ”Milli Şura”çı oldu. Daha doğrusu, Ə.Kərimlinin əsas dayaq nöqtələrindən olan bu qurumun rəhbərliyinə gətirildi. AXCP sədrinin tapşırıq və tövsiyələrinə sözcüz əməl edən Tofiq Yaqublu tezliklə Əli Kərimlinin sağ əlinə çevrildi. Halbuki həmin bu T.Yaqublu bir vaxtlar, yəni ötən əsrin 90-cı illərində sabiq prezident Əbülfəz Elçibəyə qarşı impiçment məsələsindən danışarkən konkret olaraq bu işlərdə AXC-Müsavat hakimiyyətində ən yüksək vəzifələrdən birini tutan Əli Kərimlini ittiham edirdi.

Hələ bunlar harasıdır? Hər addımda ikiüzlülüyü, riyakarlığı və mənəviyyatsızlığı ilə özünü ifşa edən Tofiq Yaqublunun bu gün xarici ölkələrin Azərbaycandakı səfirliklərində birgə süləndiyi Gültəkin Hacıbəylinin, eləcə də sağ əli olduğu Əli Kərimlinin haqqında ittihamları əks etdirən səs yazısının yayılmasını hamımız yaxşı xatırlayırıq. Həmin səs yazısında bildirilirdi ki, 90-cı illərdə Ə.Kərimli Ə.Elçibəyin hakimiyyətinin devrilməsinin qərarını özü hazırlayıb. T.Yaqublunun G.Hacıbəyli haqqında dediklərini isə nəinki yazmağı, hətta xatırlamağı və xatırlatmağı belə özümüzə rəva görmürük.

Bütün bunlar bir yana. Ən əsası odur ki, cəmiyyətimiz qırx dörd günlük Vətən müharibəsi zamanı T.Yaqublunun antimilli, erməniperəst mövqeyinin bir daha şahidi oldu. İctimaiyyətimiz 2021-ci il iyunun 15-də Qarabağın tacı olan Şuşada imzalanan, Azərbaycanın və Türkiyənin düşmənlərinə ciddi mesaj olan, iki qardaş ölkə arasında bütün sahələrdə inteqrasiyanın əsl nümunəsi sayılan, həmçinin region üçün yeni tarixi gerçəkliklər doğuran Şuşa Bəyannaməsi haqqında T.Yaqublu kimi antimilli ünsürün dediklərini də unutmayıb. Yaxşı yadımızdadır ki, bu xəyanətkar həyasızcasına erməniperəst dairələrin dili ilə Şuşa Bəyannaməsini söz şöləni adlandırırdı.

Əxlaqi-mənəvi və psixoloji sarsıntılar içində çabalayan T.Yaqublu kimi antimilli ünsürlərdən bundan artıq nəsə gözləmək olmaz. Siyasi əxlaqsızlıq, mənəvi eybəcərlik rəmzi olan T.Yaqublunun bu gün sosial şəbəkələrdə, xarici kəşfiyyat orqanlarının maliyyələşdirdiyi internet TV-lərdə qrant aldığı xarici dairələrin sifarişi ilə anti-Azərbaycan təbliğatı aparması, eləcə də ”əqidədaşı” G.Hacıbəyli ilə Fransa səfirliyinin qapısında da yallanması xəyanətkarlığın pik nöqtəsidir.

Təbii ki, təpədən-dırnağa qədər bataqlığa batmış ”Milli Şura”nın dolanbaclarında veyillənən, cəmiyyətdə riyakarlığı, satqınlığı ilə tanınan, qrant dəllalı T.Yaqublu kimi marginalların demokratiya pərdəsi altında manipulyativ əməllərini, antimilli fəaliyyətini ictimaiyyətimiz ikrahla qarşılayır və birmənalı olaraq rədd edir.

***Zahid Rza***

# Erməni generalının ”3-cü dünya müharibəsi” - sərsəmliyin son həddi

## Valerik Koçaryanın axmaq iddiası: "Ordumuz ayağa qalxana qədər Azərbaycan sülh sazişini imzalamağa çalışır"

**News.am adlı erməni saytında Ermənistan silahlı qüvvələrinin hazırlığı üzrə əsas iş şöbəsinin sabiq rəisi, general-mayor Valerik Koçaryanın bəyanatı təəccüb və istehza doğurub. Məsələ isə ondadır ki, erməni general-mayoru sərsəm iddiası ilə gündəmə gəlməklə 44 günlük müharibədə Azərbaycanın Ermənistandan daha çox itki verdiyini bildirib və...**

Və sən demə, Ermənistan Azərbaycanla sülh sazişi imzalamağa tələsməməliymiş (?!). Əslində, sırf erməni xəstəliyinə xas olan sözügedən ”analitik nəticə” qarşı tərəfdə bu kimi çoxsaylı sərsəmlərin olduğunu sübuta yetirir, həmçinin, onların fikirlərinin ciddi qəbul edilməməsi arqumentini daha çox qabardır. Lakin digər tərəfdən, bu söhbətdə erməni yüksək rütbəli zabitinin yalnız axmaqlığını deyil, həm də başqa tərəfini analiz etmək mümkündür. Beləliklə, sözügedən bəyanatda general-mayor Valerik Koçaryan yalnız bir məsələdən doğru nəticə çıxarıb - bəli, Azərbaycan, həqiqətən də, sülh sazişinin tezliklə imzalanmasını nəinki istəyir, həm də bunu tələb edir.

Ancaq nədənsə erməni generalı həmin tələbin səbəbini araşdırmır. Səbəb isə budur - regionun sürətli inkişafı, insanların sülh şəraitində yaşamaları və s.





### Onun hərbçi olması, üstəlik, general paqonları daşıması heç də yüksək dərəcəli ağıllı ünsür olması faktını sübut etmir



Lakin Koçaryanın 44 günlük müharibədə itkilər barədə danışması, guya azərbaycanlıların ermənilərdən ”daha çox” itki verməsi barədə sərsəmləmələri göstərir ki, onun hərbçi olması, üstəlik, general paqonları daşıması heç də yüksək dərəcəli ağıllı ünsür olmasından xəbər vermir. Bəli, müharibələr itkisiz olmur və Azərbaycanın mərd oğulları torpaqlarını işğaldan azad etmək üçün Vətənin bütövlüyü naminə canlarını fəda etməkdən çəkinmədilər. Amma belə bir sərsəm iddia ilə də çıxış etmək, əslində, hər şeyi bütün çılpaqlığı ilə ortalığa qoyur.Yəni, Valerik unudur ki, 44 günlük müharibə zamanı məsul olduğu şöbəsi erməni əsgərlərini kütləvi şəkildə güclü, müasir, 5-ci nəsil Azərbaycan Ordusunun qarşısına çıxarmaqla, onlara real ölüm hökmlərini kəsirdi. Təkcə 44 günlük müharibənin rəsmi videoxronikaları, sənədləri, xüsusilə erməni hərbçilərinin panik davranışları, döyüş meydanından qaçışları özü-özlüyündə Ermənistan ordusunun texnika və canlı qüvvə baxımından istər ondakı, istərsə də indiki ”səviyyəsini” sübuta yetirir. Və biz sonrakı uğurlu antiterror əməliyyatlarından danışmırıq...

### Daha bir sərsəm iddia: ”Azərbaycanlılar yaxşı bilirlər ki, ermənilər döyüşmək üçün birləşəndə onlar bacara bilməyəcəklər...”

Yeri gəlmişkən, erməni general-mayoru elə danışır ki, demə qənimətlər parkı Bakıda deyil, İrəvanda açılıbmış və indi də o, həmin parkdan ”qalib ruhlu” fikirlər səsləndirir. Üstəlik, Valerik Koçaryan onu da unudur ki, müharibədən sonra Azərbaycan bu gün də özünün hərbi qüdrətini artırır, ordu sıralarını gücləndirir, onun ölkəsi isə çabalamaqda, məhvə doğru sürüklənməkdə davam edir və bundan sonrakı 100 ildə çətin ki, ayağa qalxa bilsin, əlbəttə ki, sülh sazişinə imza atılmazsa!

Ümumiyyətlə, bu cür axmaq generallar korpusu Ermənistanda çoxdur və Koçaryan da onlardan biri kimi növbəti iddialarını irəli sürür: ”Erməni ordusu müharibəni uduzmayıb, o yalnız qarşısına qoyulan tələbləri yerinə yetirib. Sadəcə, güclər bərabər olmayıb. Azərbaycanı Türkiyə ruhlandırırdı, əgər tək olsaydı, Ermənistana və ”artsaxa” qarşı döyüşlərdən qalib çıxa bilməzdi. Bilirsiniz Azərbaycan nəyə görə sülh sənədini tez imzalamağa çalışır? Ona görə ki, onlar çox sayda itki veriblər, halbuki bu barədə danışmaq istəmirlər. Ordumuz ayağa qalxana qədər Azərbaycan sülh sazişini imzalamağa çalışır. Azərbaycanlılar yaxşı bilirlər ki, ermənilər döyüşmək üçün birləşəndə onlar bacara bilməyəcəklər...”

### Azərbaycanın hərb maşınının dişləri ən kəsici ülgücdən də itidir!

Beləliklə, general-mayor Koçaryanın danışıqları, daha dəqiq desək, sərsəmləmələri elə səslənir ki, guya İrəvanda fasiləsiz şəkildə mitinq edənlər müharibə vaxtı övladları həlak olan erməni valideynləri deyilmiş. Bu gün Ermənistandakı situasiyanı nəzərdən keçirəndə Valerikin və onun kimi revanşistlərin fikirlərindən belə bir məntiqi nəticəni də hasil etmək olar - onlar Azərbaycana qarşı müharibə çağırışları edərkən yenidən öz övladlarını ət maşınının ağzına verməyə çalışırlar. Azərbaycan üçün isə, əslində, heç bir problem yoxdur, Azərbaycanın hərb maşınının dişləri ən kəsici ülgücdən də itidir!

***Afət Tahirqızı***

# Rusiyalı ekspert: ”Erməni revanşistlərin Azərbaycan və Rusiyaya qarşı təxribatları nəticə verməyəcək”

*İqor Korotçenko: Qeyri-qanuni erməni silahlı birləşmələri üçtərəfli bəyanata uyğun olaraq Qarabağdan çıxarılmalıdır*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İctimai və dövlət maraqlarının müdafiəsi” istiqaməti çərçivəsində hazırlanıb*





**İyulun 15-də Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin vasitəçiliyi ilə Brüsseldə Azərbaycan və Ermənistan liderləri İlham Əliyev və Nikol Paşinyan arasında 6-cı dəfə danışıqlar baş tutub. Üçtərəfli görüşdən sonra verdiyi açıqlamada Mişel bunu ”məhsuldar və mənalı” adlandırıb. Onun sözlərinə görə, tərəflər ən çətin mərhələlərdən birini yaşayır.**

Avropa Şurasının rəhbəri qeyd edib ki, Azərbaycan və Ermənistan liderləri sərhədin demarkasiyası komissiyasının işini aktivləşdirmək barədə razılığa gəliblər, son iki ayda nəqliyyat blokunun açılması ilə bağlı qərarlarda irəliləyiş qeydə alınıb və gələcək nəqliyyat sazişinin şərtlərini müzakirə ediblər. İndiki vəziyyət qeyri-sabitdir və heç bir tərəfin maraqlarına xidmət etmir. Mişel deyib: ”Biz həmçinin vəziyyəti həll etmək üçün mümkün konkret addımları müzakirə etdik.

Həmçinin onun sözlərinə görə, Qarabağ erməniləri üçün humanitar yüklərin daşınması məsələsinə də toxunulub. Mişel qeyd edib ki, Azərbaycan bu məqsədlər üçün Ağdam-Xankəndi yolundan istifadə etməyi təklif edir. ”Biz gündəlikdəki bütün məsələləri müzakirə etdik: suverenlik və ərazi bütövlüyü. Ermənistan və Azərbaycan liderləri digər ölkənin ərazi bütövlüyü və suverenliyinə hörmətlərini bir daha tam şəkildə təsdiqlədilər”, - Mişel bildirib. Avropa Şurasının rəhbəri Azərbaycan və Ermənistan liderlərini yaydan sonra Brüsseldə keçiriləcək növbəti görüşə dəvət edib.

Qeyd edək ki, Qarabağın Bakının nəzarətində olmayan hissəsindəki separatçılar iyulun 13-də Ermənistan və Qarabağı birləşdirən Laçın yolunun guya Azərbaycan tərəfindən ”bağalanması” ilə bağlı ”ümumxalq hərəkatı”na başladığını elan ediblər. Bununla əlaqədar iyulun 14-də onlar Xankəndində, sonra isə Rusiyanın sülhməramlı missiyasının Xocalıdakı qərargahı qarşısında etiraz aksiyası keçiriblər. Bundan başqa, separatçılar Rusiya və beynəlxalq ictimaiyyətə qarşı ittihamlar səsləndirib, daha sonra əsas beynəlxalq təşkilatlara müraciətlər göndəriblər. Bu gün İrəvanda da etiraz aksiyaları keçirilib.

İkitərəfli Brüssel danışıqları zamanı Nikol Paşinyan separatçıların məktubunu Çarlz Mişelə verib.

Xəzər Strateji Araşdırmalar İnstitutunun (Rusiya) baş direktoru İqor Korotçenko ”Moskva-Baku” portalına müsahibəsində vəziyyəti şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.

**- İqor Yuryeviç, Brüssel formatında müntəzəm danışıqların nəticələri barədə nə deyə bilərsiniz?**

- Bu, danışıqların daha bir mərhələsidir. Görünür, belə turlar çox olacaq. Çarlz Mişel qeyd edib ki, Azərbaycan Qarabağ ermənilərinə humanitar dəhliz kimi Bərdə-Ağdam-Xankəndi yolundan istifadə etməyi təklif edir. Eyni zamanda, Ermənistan hökumətinin mətbuat xidmətinin yekun bəyanatında qeyd olunur ki, danışıqlarda Qarabağ ermənilərinin təhlükəsizliyi və hüquqları məsələsi qaldırılıb. Mişelin son bəyanatında belə bir şey eşitmədik. Bu nəyi göstərir? Azərbaycanın mövqeyinin ənənəvi olaraq erməni mövqeyindən üstün olması, İlham Əliyevin yenə də güclü mövqelər üzrə danışıqlarda çıxış etməsi. Göründüyü kimi, Paşinyanın qaldırdığı məsələlər dinlənilsə də, aktiv müzakirəyə səbəb olmayıb.

Zahiri baxanda belə, protokol fotoşəkillərindən, eləcə də video kadrlardan Azərbaycan Prezidenti İlham Əliyevin özünü necə sərbəst, rahat, üzündə təbəssümlə aparması hiss olunur. Və bu fonda Ermənistanın baş naziri Nikol Paşinyan nə qədər təmkinli, sözün əsl mənasında daşlaşmış siması ilə göründü. Özünü yersiz hiss edirdi.

Bu, həm də Azərbaycan mövqeyinin, Azərbaycan yanaşmasının daha haqlı, daha fundamental və reallıqlara uyğun olması ilə bağlı səsləndirdiyim tezislərin xeyrinədir.

**- Qarabağdakı separatçılar, Laçın yolunun ”bağlanması” ilə bağlı ümumxalq hərəkatına başladılar, yenə də Azərbaycan tərəfindən hazırlanan hansısa ”ermənilərin soyqırımı” tezisləri irəli sürülür. Bu cür bəyanatlar çoxdan mütəmadi xarakter alıb, lakin son günlər bütün bu mitinqlər açıq şəkildə regionda vəziyyəti qarışdırmaq istəyi kimi görünür. Separatçıların Paşinyanın özünə qarşı da ittihamlar səsləndirdiyini nəzərə alsaq, bunun arxasında kim dayanır?**

- Kütləvi toplantılar, mitinqlər, guya kütləvi aclıq və soyqırım şüarları ilə uşaqlardan siyasi məqsədlər üçün istifadə olunmasını görürük. Elə oradaca Xankəndindəki dəbdəbəli ziyafətlərin görüntüləri sosial şəbəkələrdə yayılır. Bu cür hərəkətlər sırf siyasi məqsədlər üçün həyata keçirilir. Bu, separatçılar arasında olan revanşistlərin, eləcə də xaricdəki ermənipərəst lobbiçi qüvvələrin bir növ ”yürüş” təşkil etmək istəyidir. Başa düşürlər ki, vaxt keçir, siyasi mövqeləri pisləşir, mövqelərini müdafiə etmək üçün ciddi arqumentlər yoxdur. Rəsmi Bakı onlara Azərbaycanın hüquqi məkanına uğurlu reinteqrasiya variantları təklif edir, sadə erməni sakinlərinin belə təklifləri qəbul etməsinə icazə verilmir.

Qarabağın gələcəyinin əvvəlcədən müəyyənləşdiyini görüb, bütün beynəlxalq ictimaiyyətə tələblər, şərtlər, şikayət və ittihamlarla məktublar göndərirlər ki, beynəlxalq ictimaiyyət ermənilərin ”qətlinə” göz yumur. Məqsəd Ermənistanla Azərbaycan arasında sülhün qarşısını almaqdır, heç bir sənədə imza atmağa icazə verməməkdir. Revanşistlər Ermənistanın baş nazirinə daim təzyiq göstərirlər.

Separatçıların Rusiya sülhməramlı kontingentinin rəhbərliyini şantaj etmək cəhdlərini, Rusiya və Azərbaycanı sıxışdırmaq cəhdlərini görürük, hansısa ziddiyyətlər üzərində oynamağa çalışırlar.

Biz dünyada hərbi-siyasi vəziyyətin təlatümlü inkişafı mərhələsindəyik. Hər şey asan deyil, Cənubi Qafqazda da asan deyil. Vəziyyəti təmkinlə qiymətləndirmək lazımdır.

Moskva ilə Bakı arasında münasibətlərin əsasını Müttəfiqlərin Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamə təşkil edir. Bizim prezidentlər arasında əla münasibətlərimiz var. Obyektiv olaraq, Azərbaycan Qarabağın qalan hissəsini öz nəzarətinə qaytara biləcək. Amma Azərbaycan rəhbəri əla diplomat kimi vəziyyəti və belə bir addımın hansı nəticələrə gətirib çıxara biləcəyini mükəmməl başa düşür. Birincisi, Rusiya, Azərbaycan və Ermənistan liderlərinin imzaladığı üçtərəfli bəyanat var ki, orada Rusiya sülhməramlı kontingentinin Qarabağda yerləşdirilməsi şərtləri aydın şəkildə göstərilib. İkincisi, istənilən qərar qəbul edərkən hər şey hesablanmalıdır ki, dostluq münasibətlərimizə xələl gəlməsin. Həm Moskvada, həm də Bakıda məsuliyyətli anlaşma var. Amma təəssüf ki, o, nə İrəvanda, nə də Qarabağın erməni separatçıları arasında yoxdur.

Biz bilirik ki, İlham Heydəroviç nəsə vəd edibsə, bu, sözsüz həyata keçirilir. Hesab edirəm ki, bu, müxtəlif situasiyalara baxmayaraq, ölkələrimizin prezidentlərinin həmişə razılığa gəlməsinin vacib amillərindən biridir.

Eyni zamanda, hesab edirəm ki, bəzi çətin məqamları dərhal həll etmək üçün rəsmi kanallarla yanaşı, Moskva ilə Bakı arasında qarşılıqlı əlaqə üçün ayrıca ekspert kanalı olmalıdır. Belə bir kanal vacibdir.

Əslində, həm separatçıların, həm də Ermənistan hakimiyyətinin göstərməyə çalışdıqları hər şey Bakının inamlı, aydın, təfərrüatlı mövqeyi və arqumentləri fonunda davam edən bir-birinə zidd xaotik siyasi hərəkətlər toplusudur. Erməni müxalifətinin-Qarabağda separatizmi dəstəkləyən revanşistlərin başına gələnləri xatırlayırıq. Müxalifətçilər nə qədər çalışsalar da, sadə, müharibədən yorulmuş əhali üçün bu hərəkətlərin əhəmiyyətsiz olduğu ortaya çıxdı.

Tarixin lokomotivini geri çevirmək heç kəs, o cümlədən revanşist olan və vəziyyətin sülh yolu ilə həllini istəməyənlər üçün mümkün olmayacaq. İstisna etmirəm ki, nə qədər irəli getsək, Ermənistandan və qeyri-qanuni qruplaşmalardan, Azərbaycana, o cümlədən Rusiya sülhməramlılarına qarşı təxribatları bir o qədər çox müşahidə edəcəyik. Ona görə də Rusiyanın sülhməramlı kontingentinə zərər vurmamaq məntiqindən çıxış edərək, Bakının müəyyən forsmajor şəraitdə hərəkət etməsi vacibdir. Bu, çox vacibdir, çünki ölkələrimizi, liderlərimizi sıxışdırmaq üçün birbaşa təxribatlar, quraşdırmalar ola bilər. Burada hər iki tərəfdən məsuliyyətli yanaşma, diqqət və məntiq bir-birinə zərər verməmək üçün son dərəcə vacibdir. İndi rəsmi Moskva danışıqlar prosesində, Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması prosesində vasitəçi kimi fəal rol oynamaqda davam etmək niyyətində olduğunu bir daha vurğulayıb və onun da mövqeyinin nəzərə alınacağını gözləyir.

**- Açıq desək, sülh istəməyən separatçılarla məsələni necə həll etmək olar?**

- Qarabağın erməni icmasının nümayəndələrinin Azərbaycanın hüquqi məkanına reinteqrasiyası üçün ətraflı ”yol xəritəsi” lazımdır. Çünki bunun ətrafında çoxlu fərziyyələr, süni şəkildə qızışdırılan çoxlu ehtiraslar var. Düşünürəm ki, ilk növbədə ekspertlər belə bir xəritəni siyasətçilərə gələcək praktiki müzakirələr üçün təklif etməlidirlər.

Qeyri-qanuni erməni silahlı birləşmələrinin Qarabağdan çıxarılmaması problemi qalmaqdadır, onlar mütəmadi olaraq təxribat törətməyə çalışırlar- Azərbaycan Silahlı Qüvvələrinin mövqelərini atəşə tutur, istehkamlar qurur, Laçın yolundan yan keçməklə silah daşıyırlar. Və bununla da üçtərəfli bəyanatla bağlı razılaşmaları pozurlar.

Qarabağda fəaliyyət göstərən erməni silahlı birləşmələrinin Azərbaycanın Füzuli şəhərinin aeroportuna uçan mülki aviasiya təyyarələrinin bortundakı radioelektron avadanlığına təsir göstərməsi ilə bağlı faktlar açıqlanıb. Bu çox təhlükəli bir şeydir. Belə ki, təxribat mülki sərnişin laynerlərinə münasibətdə həyata keçirilir. Bu, terror aktına cəhd kimi qiymətləndirilə bilər. Yəni separatçıların yerləşdiyi ərazidən onlar əslində mülki təyyarələri vurmağa çalışırlar. Buna hüquqi qiymət verilməlidir. Moskvadan, Beynəlxalq Mülki Aviasiya Təşkilatından və Cənubi Qafqaz regionunda sülh və əmin-amanlıq istəyən bütün dövlətlərdən sərt reaksiya olmalıdır.

***- Ötən həftə Fransa Senatının rəhbəri Ermənistan parlamenti sədrinin Parisə səfərindən sonra Fransa hakimiyyətini Ermənistana silah tədarükünü sürətləndirməyə çağırıb.***

- Prinsipcə, Fransadan Ermənistana silah tədarükü həyata keçiriləcəksə və ya artıq həyata keçirilirsə, bu, İrəvanın Moskvaya qarşı qeyridost addımı kimi qiymətləndirilə bilər, o zaman ki, KTMT müttəfiqi Rusiyaya düşmən olan hansısa NATO ölkəsindən silah alır.

Amma onu da etiraf edirəm ki, Fransa bir ölkə olaraq çox xəsisdir, əli bərkdir və çətin ki, əvəzsiz silah tədarükünə getsin. Bu, bir növ kredit sxemləri ilə ola bilər.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
19 iyul
2023-cü il

# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Fermerlərə hansı kredit və güzəştlər təklif olunur?

*AYDINLIQ GƏTİRİLDİ*



"Bildiyiniz kimi, agentlik əsasən qida təhlükəsizliyinin təmin edilməsi məqsədilə kənd təsərrüfatının inkişafına xidmət edir. Burada əsas iki istiqamət var. Birincisi, məhsul subsidiyalarının verilməsi, ikincisi isə kənd təsərrüfatı istehsal vasitələrinin kredit və güzəştlərlə təmin edilməsidir". Bu sözləri SİA-nın sorğusuna cavab olaraq Aqrar Kredit və İnkişaf Agentliyinin rəsmisi Rövşən Məmmədli deyib.

Onun sözlərinə görə, kredit və güzəşt istiqaməti dedikdə əsas dörd istiqamət nəzərdə tutulur: mikrokreditlər, aşağı faizli güzəştli kreditlər, kənd təsərrüfatı texnikaları və avadanlıqlarının maliyyələşdirilməsi üçün kredit və güzəştlər, damazlıq heyvandarlığın dəstəklənməsi üçün güzəştlər və kreditlər.

R.Məmmədli sözlərinə davam edərək kredit və güzəştlər barədə məlumat verib: "Mikrokredit dedikdə daha sürətli şəkildə 15 min manatadək verilən kredit nəzərdə tutulur. Bu kreditin illik faiz dərəcəsinin yuxarı həddi 12%-dir. Bu, banklardan asılı olaraq daha aşağı da ola bilir. 15 min manatdan yüksək aşağı faizli güzəşt kreditlərinin isə faiz dərəcəsi 7-dir. Mikrokreditə nisbətən bu kredit növü daha uzunmüddətlidir.

Kənd təsərrüfatı texnikaları və avadanlıqlarının maliyyələşdirilməsi üçün kredit və güzəştlər də var ki, burada fermer ilkin ödəniş etməlidir. Məsələn, bir texnikanın gömrük dəyərinin 40% həcmində güzəşt verilir. Onun satış dəyərinin minimum 20% həcmində fermer ilkin ödəniş edir. Satışın geri qalan hissəsi qədər kredit verilir. Əslində, bu faizli kredit növüdür. Sadəcə faizi fermer deyil, agentlik ödəyir.

Damazlıq heyvandarlığın maliyyələşdirilməsi məqsədilə güzəşt və kreditlər ayrılır. İdxal edilən damazlıq heyvanının gömrük dəyərinin 60% həcmində güzəşt vəsaiti ayrılır. Əgər damazlıq heyvan yerlidirsə, bunun qiymətləndirmə nəticəsində müəyyən edilmiş satış dəyərinin 60% həcmində subsidiya ayrılır. Bundan əlavə, fermer ilkin ödəniş olaraq məbləğin 25%-ni həyata keçirir. Geri qalan məbləğ isə 7%-lə kreditləşdirilir".

## Daha bir idmançımız Parisdə qızıl medal qazanıb

Daha bir idmançımız Parisdə keçirilən paraatletika üzrə dünya çempionatında qızıl medal qazanıb. Belə ki, Azərbaycan idmançısı Lamiyə Vəliyeva 400 metr məsafəyə qaçışın final mərhələsində bütün rəqiblərini qabaqlayıb. O, məsafəni 55,34 saniyəyə qət edərək birincilik qazanıb. Qeyd edək ki, Lamiyə Vəliyeva daha əvvəl 100 metr məsafəyə qaçışda dünya çempionu olub.



## Avtomobillərin vergidən azad olunması qiymətlərə necə təsir edəcək?



"2007-ci ildən etibarən bizim ölkədə nəqliyyat vasitələrində gömrük məsələləri ilə bağlı dəyişikliklər olmuşdu. Gömrük rüsumları dövlət tərəfindən artırılmışdı. Bunun həyata keçirilməsində müxtəlif məqsədlər olub. 2007-ci ildə əvvəl rüsumlar olduqca aşağı idi, tələbat çox idi və ölkəyə külli miqdarda nəqliyyat vasitələri daxil olurdu. Təbii ki, dövlət də bundan yararlanmalı idi". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı, daşınmaz əmlak üzrə ekspert Elnur Azadov deyib.

Onun sözlərinə görə, sonrakı dövrlərdə 2 min kubmetrdən yuxarı olan nəqliyyat vasitələrinə daha fərqli gömrük vergilərinin tətbiq olunması da həm ekoloji baxımdan, həm də büdcəyə əlavə gəlirlərin daxil olması baxımından həyata keçirilib: "Bu ilin əvvəlindən isə 10 ildən daha çox yaşı olan nəqliyyat vasitələrinin ölkəyə daxil olmasına qadağa qoyulub. Hazırda tətbiq olunan vergilərə güzəşt ilk növbədə yerli istehsal olunan nəqliyyat vasitələrinin inkişafı ilə bağlıdır. Bu da vətəndaşlar üçün əlverişli şərait yaradır. Lakin burada başqa bir məsələ də var ki, yerli istehsal olunan nəqliyyat vasitələri ilk növbədə bizim vətəndaşlar tərəfindən qəbul olunmalıdır. Nəzər yetirsək, yollarda yerli istehsal olunan nəqliyyat vasitələrinin sayının olduqca az olduğunu görərik. İstehsalçıya etibar məsələsi də çox vacibdir".

E.Azadov sözlərinə davam edərək bildirib ki, son 4-5 il ərzində Çin artıq nəqliyyat vasitələri istehsal etməyi öyrənib: "Təxminən 2005-ci ildən etibarən Çin dünya bazarında marka yaratmağa başladı. Onların 2005-2020 illərində istehsal etdikləri nəqliyyat vasitələri həm bizim ölkədə, həm də ümumilikdə dünyada üstün qəbul olunmadı. Görünüş, texniki və servis məsələləri və s. baxımından Çin avtomobilləri özünü doğrultmadı. Amma son illər ərzində təcrübə onu göstərir ki, hazırda Çində istehsal olunan nəqliyyat vasitələri daxili və xarici dizayn baxımından maşın bazarında üstün bir yer tutub. Digər istehsalçılar üçün artıq onlarla mübarizə aparmaq çətin olacaq. Doğrusu, Azərbaycanın bu sahədə Çin qədər təcrübəsi yoxdur. Layihələr başqa ölkələr tərəfindən hazırlandığı üçün avtomobillərin ehtiyat hissələrini gətirib Azərbaycanda qururuq. Vətəndaşların belə avtomobillərə etibar etməsi çətin məsələdir. Ona görə də vergidən azad olunma bir o qədər də əhəmiyyətli rol oynamır".

***Ləman Sərraf***

## "Avropa futboluna qayıtmayacağam, qapı tamamilə bağlıdır"



Jurnalist Fabrizio Romano öz "Tvitter" səhifəsində çox maraqlı məlumat paylaşıb. Onun paylaşımından məlum olur ki, "Əl-Nəsr"in futbolçusu Kriştiano Ronaldo Avropadakı azarkeşlərini üzən açıqlama yayıb. Ərəb dollarlarından cuşa gələn portuqaliyalı futbolçu, bir daha Avropa futboluna qayıtmayacağını açıqlayıb: "Avropa futboluna qayıtmayacağam, qapı tamamilə bağlıdır. 38 yaşım var və Avropa futbolu keyfiyyətini çox itirib. Yalnız Premyer Liqa bütün digər liqaları çox qabaqlayır".

## Anomal istilər İtaliyanı cənginə alıb



Qovurucu istilər İtaliyanı cənginə alıb. İtaliya Səhiyyə Nazirliyi ölkədə müşahidə olunan anomal istilər səbəbindən "qırmızı" xəbərdarlıq elan edilən şəhərlərin sayını artırıb. Artıq bu gün paytaxt Roma daxil olmaqla 20 şəhərdə, iyulun 19-da isə 23 şəhər üçün "qırmızı" xəbərdarlıq elan olunub. Beləliklə, ölkənin 27 böyük şəhərindən əsasən mərkəz və cənub bölgələrindəki 23 şəhərdə havanın temperaturunun maksimum həddə çatacağı gözlənilir.

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000